

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 13 sentyabr 2023-cü il, çərşənbə / № 165 (6509). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# İnkişaf konsepsiyasının tərkib hissəsi...



## Təhsil islahatları davam edir

Bax səh. 2

## Vətən müharibəsinə 14 gün qalırdı...

### 13 sentyabr 2020

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən istifadə etməklə sutka ərzində atəşkəs rejimini 31 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Dünya azərbaycanlılarını birləşdirən dəyər!

Bax səh. 5




## 23 aprel - dönüş nöqtəsinə çevrilən gün

### Ağdam-Xankəndi yolu açıqdır...

Bax səh. 2



Bax səh. 4

## YAP-ın nümayəndə heyəti Çində beynəlxalq partiyalararası konfransda iştirak edib

## BMT-nin Cenevrə bölməsində "Azərbaycan" otağı

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Ceyhun Bayramovun Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Miryana Spolyariç Eqqer ilə görüşü zamanı regiondakı son vəziyyət fonunda Azərbaycan ilə BQXK arasında əməkdaşlığın hazırkı durumu, mövcud çağırışlar və gələcək perspektivlər barədə müzakirələr aparılıb...

Bax səh. 5

## Əməkdaşlığa dair Yol Xəritəsi

Azərbaycanın iqtisadi, siyasi, mədəni və digər sahələrdə sıx əlaqələr qurduğu və əməkdaşlıq istiqamətlərini davamlı şəkildə genişləndirdiyi ölkələrdən biri də İsraildir. İki döst ölkənin münasibətləri qarşılıqlı maraqlara və bir-birinə hörmət prinsipinə əsaslanır. İsrail müstəqilliyimizi tanıdığı 1991-ci il dekabrın 25-dən sonra Azərbaycan ilə bu dövlət arasında münasibətlər həmişə müsbət və qarşılıqlı anlaşma ruhunda olub. Cari ilin mart ayında İsrailin Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılış mərasimi baş tutub. Bu günlərdə isə Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi və İsrail dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi arasında "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi", eləcə də "2023-2025-ci illər üçün kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi" imzalanıb...

Bax səh. 3

## ABŞ qondarma "seçkiləri" tanımadı...

Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyət ölkəmizin Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Azərbaycan Xarici İşlər Nazirliyinin qanunsuz "seçkilər"lə bağlı bəyanatında bildirilir ki, ölkəmizin ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycan Konstitusiyası və qanunları təşkil edir. Qondarma "seçkiləri" pisləyən Xarici İşlər Nazirliyi dünya dövlətlərini və beynəlxalq təşkilatları bu hadisəni pisləməyə çağırmışdı.

Qarabağda qanunsuz...

Bax səh. 2

## Yeni fərman!

Bu günlərdə Prezident İlham Əliyev hərbi xidmətə çağırışla bağlı olduqca vacib fərman imzalayıb. Yeni qaydalara əsasən, çağırışçıların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSM) tərəfindən aparılacaq.

Ölkə qanunvericiliyinə əsasən, müddətli həqiqi hərbi xidmətə çağırılan...

Bax səh. 5

## Dəhşətli rəqəmlər və mənəviyyatsız terror aktı...

Ermənistan bütün xəbərdarlıqlara baxmayaraq, sərhəddə və Rusiya sülhməramlı...

Bax səh. 4



## ABŞ-Ermənistan hərbi təlimləri: Rusiya üçün ikinci cəbhə açıla bilərmi?

Bax səh. 6

## Vaxtı ötmüş "qərar"...



Bax səh. 7

# İnkişaf konsepsiyasının tərkib hissəsi...

Prezident İlham Əliyev Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib








## Təhsil islahatları davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də iki min şagird yerlik Xırdalan şəhər 11 nömrəli tam orta məktəbin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu məktəbin layihəsi Xırdalan şəhərinin ərazisindəki təhsil ocaqlarında şagird sıxlığı nəzərə alınaraq dövlətimizin başçısının tapşırıqlarına əsasən hazırlanıb və uğurla icra olunub.





Məktəb binasının tikintisinə 2021-ci ilin fevral ayında başlanıb və bu ilin sentyabr ayında başa çatdırılıb. Ən müasir avadanlıqla təchiz olunan funksional bina tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şəraitə malikdir. Yeni məktəbdə 74 sinif, 6 informatika otağı, məktəbəqədər 2 hazırlıq otağı, 8 otaqdan ibarət STEAM Mərkəzi, 2 idman zalı, 2 əmək otağı, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika və biologiya kabinetləri, kimya laboratoriyası, kitabxana, yeməkxana və 400 nəfərlik akt zalı yaradılıb.

Prezident İlham Əliyev yeni təhsil ocağının məktəbəqədər hazırlıq, ibtidai sinif otaqlarında, biologiya kabinetində, çağırışa qədər hərbi hazırlıq otağında, STEAM Mərkəzində, fizika kabinetində, kimya laboratoriyasında, informatika otağında, idman zalında və yeməkxanada yaradılan şəraitlə tanış oldu.

STEAM layihəsi birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-2020-ci tədris ilinin əvvəlindən məktəblərimizdə tətbiq edilir. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə aşılamaqla yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Bu məktəbin STEAM Mərkəzi də elektron lövhələr, kompüterlər, 3D printerlər, müvafiq öyrədici qurğular, elektron komponentlər və dəftərxana ləvazimatları ilə təmin olunub. Burada, həmçinin mühəndis emalatxanası, kiçik yaşlı uşaqlar üçün zona, təlim və robototexnika otaqları var.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər ölkələrin inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Son illərdə ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Xırdalan şəhəri 11 saylı tam orta məktəbin ən müasir standartlara cavab verən binasının inşası da bir daha təsdiqləyir ki, ölkəmizdə təhsil islahatları Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində uğurla davam edir.

# 23 aprel - dönüş nöqtəsinə çevrilən gün

## Ağdam-Xankəndi yolu açıqdır...

Rusiya hökumətinin təşəbbüsü ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Rusiya Qızıl Xaç Cəmiyyətinin birgə əməkdaşlıq memorandumuna əsasən, Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərinin ərzağa olan ehtiyaclarının qarşılanması məqsədilə Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən göndərilən humanitar yükün Xankəndiyə çatdırılması təmin olunub. Xatırladaq ki, Qarabağ separatçılarının qəbul etmək istəməməsi səbəbindən yük maşını iki gün Bərdə şəhərində gözləməli olmuşdu. Lakin problem həll edildi və artıq ərzaq və qeyri-ərzaq məhsulları yüklənmiş TIR Qarabağda yaşayan erməni əsilli şəxslərə çatdırılıb.

Separatçıların nümayəndələri humanitar yükün qarşısını almağa çalışsalar da, buna nail ola bilməyiblər. Belə ki, erməni medasının məlumatına görə, Ağdam-Xankəndi yolunu bağlamaq istəyən bir qrup separatçı Rusiya sülhməramlılarının xəbərdarlığından sonra ərazidən uzaqlaşdırılıblar.

# XİN: İrəliləyiş kimi qiymətləndiririk




Qızıl Aypara Cəmiyyəti ilə əlaqələndirilmiş şəkildə Rusiya Qızıl Xaç Cəmiyyətinin (RQXC) yük avtomobilinin Ağdam-Xankəndi yolu vasitəsilə Xankəndinə keçidinin təmin olunması Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən də müsbət dəyərləndirilib. Bu barədə nazirliyin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın qondarma rejimi tərəfindən problem və təxribatların törədilməsinə baxmayaraq, RQXC tərəfindən göndərilən yükün Azərbaycanla əlaqələndirilmiş şəkildə məhz Ağdam-Xankəndi yolu ilə keçməsini bu yolun açılması istiqamətində müsbət addım və mühüm irəliləyiş kimi qiymətləndiririk.

Ağdam-Xankəndi və Laçın yollarının eyni zamanda açılması məsələsinə gəlincə Ayxan Hacızadə qeyd edib: "Ağdam-Xankəndi və Laçın yollarından eyni vaxtda istifadə məsələsinə gəldikdə isə Azərbaycanın ABŞ və digər tərəfdaşlar ilə yüksək səviyyəli təmaslar zamanı da qeyd etdiyi kimi, ölkəmiz bu iki yoldan BQXK vasitəsilə eyni zamanda istifadə məsələsinə razılıq verib. Təəssüf ki, bu razılığın da həyata keçirilməsinə mane olan tərəf Ermənistan tərəfindən Qarabağ bölgəsində yaradılmış qondarma rejimdir. Bir daha bəyan edirik ki, Azərbaycan tərəfi Ağdam-Xankəndi yolu ilə paralel olaraq, Laçın sərhəd-buraxılış məntəqəsində müvafiq olaraq sərhəd və gömrük prosedurlarına əməl etməklə BQXK vasitəsilə yüklərin daşınmasına şərait yaratmağa hazırdır".

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yük avtomobilləri isə 16 gündür ki, Ağdam-Xankəndi yolunda gözləyir. Bu barədə jurnalistlərə açıqlama verən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş katibi Ceyhun Mirzəyev deyib ki, bu yüklərin də Qarabağda yaşayan erməni əsilli sakinlərə çatdırılması istiqamətində müzakirələr davam edir.

# "Humanitar böhran" şousunun sonu

Ağdam-Xankəndi yolu ilə Rusiyaya məxsus humanitar yükün Qarabağ ermənilərinə çatdırılması Laçın yolunu bir daha gündəmə gətirib. Bu il aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması tarixi hadisədir. Bu sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması Azərbaycanın suveren hüququdur və beynəlxalq normalara əsaslanır. "Laçın" postunun yaradılmasına etiraz edən Ermənistan onun ləğvi üçün Beynəlxalq Ədalət Məhkəməsinə şikayət etmişdi. Lakin məhkəmə Ermənistanın iddiasını rədd edərək bu sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasının Azərbaycanın suveren hüququ olduğunu bir daha təsdiqlədi. Eləcə də, Ermənistan və Fransanın təşəbbüsü ilə avqustun 16-da BMT Təhlükəsizlik Şurasının iclasında da Laçın yolu ilə bağlı aparılan müzakirələr iflasa uğradı.




Bütövlükdə, 23 apreldə Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması regionda vəziyyəti əhəmiyyətli dərəcədə dəyişdirdi və dönüş nöqtəsinə çevirdi. Artıq Ermənistan Qarabağ separatçılarına nə silah-sursat daşıya bilir, nə də xarici ölkələrin təmsilçilərinin qanunsuz səfərlərini təşkil edir. Ona görə də, hazırda "humanitar böhran" şousu yaratmağa çalışır. Ağdam-Xankəndi yolunun açılması isə bu şounun da sonu deməkdir.

*Nardar BAYRAMLI*

# ABŞ qondarma "seçkiləri" tanımadı...

## Separatçıların qanunsuz "seçkiləri" pislənildi




Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma rejimin "prezident seçkiləri" adı altında apardığı qanunsuz fəaliyyət ölkəmizin Konstitusiyası, qanunları və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasıdır. Azərbaycan Xarici İşlər Nazirliyinin qanunsuz "seçkilər"lə bağlı bəyanatında bildirilir ki, ölkəmizin ərazisində siyasi iradənin seçki vasitəsilə ifadəsinin legitim əsasını yalnız Azərbaycan Konstitusiyası və qanunları təşkil edir. Qondarma "seçkiləri" pisləyən Xarici İşlər Nazirliyi dünya dövlətlərini və beynəlxalq təşkilatları bu hadisəni pisləməyə çağırmışdı.

Qarabağda qanunsuz rejim tərəfindən keçirilən "seçkinin" beynəlxalq miqyasda pislənilməsi davam edir. Böyük Britaniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Fergus Auld deyib ki, Böyük Britaniya sentyabrın 9-da Qarabağda keçirilən qondarma "prezident seçkiləri"ni tanımır: "Biz beynəlxalq hüququn prinsip və normalarının əhəmiyyətini vurğulayaraq, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik".

"Biz ötən həftə də bəyan etdik ki, Qarabağı müstəqil və suveren ölkə kimi tanımırıq, eyni zamanda, orada keçirilən qondarma "prezident seçkiləri"ni də tanımırıq". Bu fikirləri isə ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller mətbuat üçün brifinqində deyib. Dövlət Departamentinin mətbuat katibi bildirib ki, ABŞ dövlət katibi Entoni Blinken tərəfləri gərginlik yaradacaq addımlardan çəkinməyə, dialoqa çağırıb. Metyu Miller vurğulayıb ki, rəsmi Bakı ilə İrəvan arasında dialoq vacibdir: "ABŞ Azərbaycan və Ermənistan arasında həll olunmamış məsələlərin həlli istiqamətində səyləri, birbaşa dialoqu davamlı şəkildə dəstəkləyir".

Macarıstan da Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır, buna görə də Qarabağdakı qondarma "prezident seçkilərini" qeyri-legitim hesab edir. Bu barədə Macarıstan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mate Patsolay sentyabrın 11-də bildirib.

Bolqarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu da 9 sentyabr 2023-cü il tarixində Azərbaycanın Qarabağ bölgəsində keçirilmiş qondarma "seçkiləri" tanımır. Bu barədə dostluq qrupunun sədri Həmid Bari Həmid özünün "X" hesabında yazıb. O bildirib ki, qondarma "seçkilər" beynəlxalq hüququn fundamental norma və prinsiplərinə zidddir. "Biz dostluq qrupunun üzvləri Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünə güclü dəstəyimizi bildiririk", - deputat qeyd edib.

Rumıniya Xarici İşlər Nazirliyi də bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, Rumıniya Qarabağda keçirilən qondarma "prezident seçkiləri"ni tanımır. Rumıniya XİN Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyi və ərazi bütövlüyünü tam dəstəklədiyini bir daha bəyan edir və regiondakı bütün məsələlərin beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq siyasi yolla həllinin tərəfdarıdır.

*Nardar BAYRAMLI*

# Əməkdaşlığa dair Yol Xəritəsi

## Azərbaycanla İsrail arasında yeni sənəd imzalanıb



Azərbaycanın iqtisadi, siyasi, mədəni və digər sahələrdə sıx əlaqələr qurduğu və əməkdaşlıq istiqamətlərini davamlı şəkildə genişləndirdiyi ölkələrdən biri də İsraildir. İki döst ölkənin münasibətləri qarşılıqlı maraqlara və bir-birinə hörmət prinsipinə əsaslanır. İsrail müstəqilliyimizi tanıdığı 1991-ci il dekabrın 25-dən sonra Azərbaycan ilə bu dövlət arasında münasibətlər həmişə müsbət və qarşılıqlı anlaşma ruhunda olub. Cari ilin mart ayında İsrailin Təl-Əviv şəhərində Azərbaycan səfirliyinin açılış mərasimi baş tutub. Bu günlərdə isə Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi və İsrail dövlətinin Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi arasında "Kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi", eləcə də "2023-2025-ci illər üçün kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi" imzalanıb.

### Tarixi-mənəvi bağlılıq

Azərbaycan-İsrail münasibətləri, necə deyərlər, tarixdən qaynaqlanır. Respublikamızda əsrlər boyu, təqribən, 2600-2700 ilə yaxındır ki, yəhudilər yaşayırlar. 1870-ci ildə Bakıda neft hasilatına başlandıqdan sonra Azərbaycana yəhudi biznes nümayəndələrinin axını başlayıb. Q.Polyak, A.Dembo, X.Kaqan, baron Q.Qinzburq, A.Feyqel respublikamızda geniş fəaliyyət göstəriblər.

Hazırda Bakı şəhərində yəhudilərin 3 sinaqoqu mövcuddur. Bir sinaqoq isə Quba rayonunda, dağ yəhudilərinin iri icmasının məskunlaşdığı Qırmızı Qəsəbədədir. Bu, keçmiş Sovet İttifaqı ərazisində yəhudilərin kompakt yaşamaqda olduğu yeganə yerdir.

Azərbaycanda yəhudilərə həmişə yaxşı münasibət bəslənib və burada heç zaman antisemitizm halları olmayıb. Hər iki ölkəni yaxınlaşdıran daha bir amil isə Azərbaycanda yəhudi diasporunun və İsraildə Azərbaycandan getmiş təxminən 100 min yəhudinin yaşamasıdır. Buna görə də İsrail dövlətinin Azərbaycanla əməkdaşlıqda maraqlı olmasını təkcə respublikamızın zəngin enerji resursları, coğrafi yerləşməsi, sırf iqtisadi-siyasi amillərlə səciyyələndirmək düzgün deyil. İki ölkə arasında əməkdaşlıq tarixən mövcud olmuş, bu əlaqələrin kökündə insani dəyərlər, milli-dini tolerantlıq, qarşılıqlı anlaşma dayanıb. Təsadüfi deyildir ki, Qarabağ müharibəsində şəhid olan ilk qəhrəmanlar sırasında yəhudi əsilli Milli Qəhrəmanımız Albert Aqarunovun da adı var. O, ermənilərin xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Zamanında jurnalistin "Yəhudiləri Azərbaycan torpağını qorumağa nə vadar edir?" sualına o belə cavab vermişdi: "Mən bu torpağın övladıyam, burada doğulmuşam, burada yaşayıram, daha heç nə məcbur eləmir". Bu cavab, əslində, Azərbaycanda yaşayan yəhudilərin torpağımıza, xalqımıza bağlılığının bariz sübutudur.




### Genişlənən iqtisadi əlaqələr

Azərbaycanla İsrail arasındakı tarixi bağlılığa, siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq iqtisadi sahədə əməkdaşlıq da genişlənir. İsrail Azərbaycanın əsas ticarət tərəfdaşları sırasındadır. Bu ölkənin neft və neft məhsullarına olan tələbatının təxminən 40 faizi məhz respublikamızdan idxal hesabına ödənilir. İndiyədək iki ölkənin enerji əməkdaşlığında hər hansı bir fors-major halı yaşanmayıb. Hər iki tərəf öhdəliklərini böyük məsuliyyətlə yerinə yetirirlər.

Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiya, həmçinin Azərbaycanın İsraildəki Ticarət nümayəndəliyi ölkələrimiz arasında tərəfdaşlığın inkişafı üçün əhəmiyyətli platformalardır. Ölkələrimiz iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi istiqamətində işləri davam etdirirlər. Respublikamızın İsraillə qarşılıqlı investisiya, həmçinin energetika, kənd təsərrüfatı, İT, innovasiya, əczaçılıq, turizm və s. sahələr üzrə səmərəli əməkdaşlığı mövcuddur. Ötən il işgüzar dairələrimiz arasında əlaqələrin genişləndirilməsi istiqamətində fəal iş aparılıb. İsrail şirkətləri ilə birgə investisiya layihələrinin reallaşdırılması üzrə işlər hazırda da davam edir. Son məlumatlara görə, 2023-cü ilin yanvar-aprel ayları üzrə İsrail ilə Azərbaycan arasında ticarət dövriyyəsi yarım milyard ABŞ dollarını ötüb. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 33,5 faiz artım deməkdir.

### Birgə aqrar layihələr

İsrail özünün kənd təsərrüfatını innovativ əsaslarla inkişaf etdirir. Azərbaycan da bu təcrübədən yararlanmaq niyyətindədir. Bu ölkə ilə



innovativ inkişaf və rəqəmsal iqtisadiyyat, o cümlədən aqroparklar, turizm, su təsərrüfatı, qida təhlükəsizliyi və digər sahələrdə tərəfdaşlığın gücləndirilməsi üçün geniş imkanlar var. Son illərdə respublikamızın bölgələrində müasir yanaşmaların geniş tətbiq olunduğu yeni təsərrüfatlar yaradılıb. İsraillə aqrar sektorda əməkdaşlıq ölkəmizdə bu tendensiyanı daha da sürətləndirəcək. Qeyd edək ki, İsrail şirkətləri hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində layihələr həyata keçirirlər. Sentyabrın 11-də Prezident İlham Əliyevin ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul etməsi də iki dost ölkənin aqrar sahədə əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bir daha təsdiqləyir. Görüşün videokonfrans formatında keçirilməsinə səbəb İsrail nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirilib. Bir neçə gün əvvəl Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olunub, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulanıb.

Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edilib, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirilib.

Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Azərbaycanda səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Kənd Təsərrüfatı Nazirliyində də görüş keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən "Yeni Azərbaycan"a bildirilib ki, qonaqları salamlayan kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkəmizdə aqrar sektora dövlət dəstəyi barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Bildirilib ki, iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Tərəflər aqrar sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını vurğulayıblar.

Görüşdə Azərbaycan və İsrail arasında aqrar sahədə əməkdaşlıq, kənd təsərrüfatı sahəsində ticarət dövriyyəsinin artırılması, heyvandarlıq və toxumçuluq sahələrində ən müasir texnologiyaların transferi, aqrar tədqiqatlar və təcrübə proqramları sahələrində əməkdaşlığın genişləndirilməsi, suvarma sahəsində İsrail təcrübəsi məsələləri müzakirə olunub. Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb. İmzalanan Bəyannamədə qeyd olunan sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi niyyəti öz əksini tapıb. Bu sahədə fəaliyyətlərin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə birgə işçi qrupunun yaradılması nəzərdə tutulur.

***Mübariz FEYİZLİ***

# Sahibkarlar üçün əlverişli rəqabət mühiti

Sahibkarlıq mühitinin daha da optimallaşdırılması, daxili istehsalın stimullaşdırılması və qorunması ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin prioritetləri sırasında mühüm yer tutur. Əsas Qanunun 15-ci maddəsinin II hissəsinə əsasən Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. Müəyyənləşdirilən və Konstitusiya ilə təsbit olunan strateji kursa uyğun olaraq respublikamızda həm islahatlar həyata keçirilir, hüquqi baza möhkəmləndirilir, həm də praktiki müstəvidə zəruri tədbirlər görülür. Diqqətəlayiq haldır ki, bu sahədə aparılan dövlət siyasəti ardıcıl səciyyə daşıyır, reallaşdırılan islahatlar bir-birini tamamlayır. Bu baxımdan Rəqabət Məcəlləsinin layihəsinin hazırlanması da xüsusi önəm daşıyır. Qeyd edək ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə Rəqabət Məcəlləsinin layihəsi daxil olub.

### 12 fəsil və 84 maddədən ibarət Rəqabət Məcəlləsi

Ölkədə istehsalın və xidmət şəbəkəsinin genişləndirilməsi, keyfiyyətin yüksəldilməsi üçün bütün bazar iştirakçıları üçün eyni şəraitin yaradılması, onların qanuni fəaliyyətlərinin qeyri-sağlam müdaxilələrdən və təsirlərdən qorunması çox vacibdir. Əks halda bazarda anarxiya yaranar, son nəticədə isə istehlakçıların hüquqları pozular, onlar keyfiyyətli məhsullardan və xidmətlərdən məhrum qalarlar. Əlverişsiz sahibkarlıq mühiti həmçinin qiymətlərə də artırıcı təsir göstərir. Bütövlükdə, haqsız rəqabət bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzar nüfuzuna xələl yetirə bilən hərəkətlər anlamına gəlir. İndiyədək ölkəmizdə bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi yükünün azaldılması, haqsız rəqabətlə mübarizə tədbirlərinin gücləndirilməsi kimi sistemli tədbirlər həyata keçirilib. Azərbaycanda son illər rəqabətin qorunması, iqtisadiyyatın liberallaşdırılması və s. istiqamətlərdə həyata keçirilən köklü dəyişikliklər sağlam rəqabətə əsaslanan bazar iqtisadiyyatının formalaşmasında əhəmiyyətli rol oynayıb. İndiki mərhələdə isə islahatlar yolu ilə qanunvericiliyin daha da təkmilləşdirilməsinə ciddi zərurət yaranıb. Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunan qanun layihəsi də məhz bu zərurət nəzərə alınmaqla hazırlanıb. İndiyədək sahibkarlıq fəaliyyətində haqsız rəqabətin aşağıdakı formaları müəyyənləşdirilmişdi:

-rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;

-rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;

- rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;

- haqsız sahibkarlıq fəaliyyəti;

- haqsız işgüzarlıq davranışı;

-istehlakçıların çaşdırılması.



Parlamentə təqdim olunan Rəqabət Məcəlləsinin layihəsində meydana çıxan yeni çağırışlar və indiki strateji mərhələdə ölkəmizin qarşısında duran prioritetlər və hədəflər nəzərə alınıb. Parlamentə daxil olan sənəd 12 fəsil və 84 maddədən ibarətdir. Layihəyə əsasən, aşağıdakılar rəqibin sahibkarlıq fəaliyyətini təqlid edən hərəkətlər hesab olunur:

- məhsulun texniki xassələrindən irəli gələn xarici görünüşü istisna olmaqla, rəqibin məhsulunun və onun formasının, o cümlədən malın xarici tərtibatının və ya qablaşdırılmasının onunla razılaşdırmadan təqlid edilməsi;

- rəqibin əqli mülkiyyət hüquqlarını pozmaq yolu ilə onun məhsulunun bilavasitə təkrarlanması;

- rəqibin adından və ya firma adından (eyni adlı təsərrüfat subyektinin öz adından hər hansı fərqləndirici nişanla firma adı kimi istifadə halları istisna olmaqla), habelə onun əmtəə nişanından qanunsuz istifadə edilməsi;

- rəqibin internet domeninin adından, habelə rəqiblə eynilik və ya istifadəçiləri çaşdıracaq dərəcədə oxşarlıq təşkil edən internet səhifəsinin dizaynından onunla razılaşdırılmadan istifadə edilməsi;

- rəqibin qanuna uyğun istifadə etdiyi coğrafi göstəricisindən qanunsuz istifadə edilməsi.

### İstehsalçıların və istehlakçıların mənafeyini qoruyan sənəd

Azərbaycanın Rəqabət Məcəlləsi bu sahədə mövcud qanunvericilik aktları əsasında, beynəlxalq təcrübə, o cümlədən Avropa və MDB dövlətlərinin təcrübələri öyrənilməklə hazırlanıb. Bütövlükdə, respublikamızın milli standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Xatırladaq ki, ölkə Prezidentinin 2023-cü il 23 yanvar tarixli sərəncamı ilə "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət proqramının qəbulu və növbəti 3 il ərzində icrasının əsas strateji hədəfləri ölkənin standartlaşdırma sisteminin dünya standartlaşdırma sisteminə uyğunlaşdırılması, standartlaşdırma məhsullarının rəqabət qabiliyyətliliyinin artırılmasına töhfə verən fəaliyyətə çevrilməsi, qeyri-qida istehlak mallarının təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması, müasir laboratoriyalar şəbəkəsinin qurulması, texniki tənzimləmə və standartlaşdırma sahəsində elektronlaşdırmanın təmin edilməsinə və digər məsələlərə xidmət edir. Layihəsi artıq Milli Məclisə təqdim olunan Rəqabət Məcəlləsinin qəbul edilməsi ölkəmizdə rəqabət mühitində və antiinhisar siyasətində rəqabəti və azad sahibkarlığı təşviq etməklə həm iqtisadiyyatın inkişafını, istehsalçıların və istehlakçıların maraqlarını, eləcə də məhsul və xidmətlərin yüksək keyfiyyətini təmin edəcək.

Paralel şəkildə, respublikamızda "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair 2023-2026-cı illərdə Milli Fəaliyyət Proqramı"nın layihəsi hazırlanıb. Bu sənəd kiçik və orta biznes subyektlərinin bazara girişinin və bazarda inkişafının qarşısını alan maneələrin ortadan qaldırılmasına, bəzi təbii inhisar sahələrinin mərhələli şəkildə rəqabətli bazara keçidinin formalaşmasına, rəqabət orqanının təsir dairəsinin genişləndirilməsinə və digər vacib hədəf göstəricilərinə, o cümlədən ölkənin rəqabət indeksinin müəyyən edilməsi metodologiyasına dair tələbləri özündə əks etdirir.



***M.ABDULLAYEV***

# YAP-ın nümayəndə heyəti Çində beynəlxalq partiyalararası konfransda iştirak edib

Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.

Sentyabrın 12-də nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Çinhay Əyalətinin Partiya Komitəsinin katibi, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü Çen Qanın bu ölkədə səfərdə olan xarici nümayəndə heyətlərinin rəhbərləri ilə görüşündə iştirak edib. Görüşdə Çin Xalq Respublikasının inkişaf yolundan və qazanılan nailiyyətlərdən, həmçinin qarşıda duran hədəflərdən ətraflı bəhs edilib. ÇXR-in Sədri, ÇKP-nin baş katibi Si Cinpinin yeni dövrdə Çin xüsusiyyətli sosializm haqqında ideyalarının mahiyyəti və praktiki əhəmiyyəti barədə geniş məlumat verilib.





Görüşdən sonra nümayəndə heyətlərinin rəhbərləri üçün nahar verilib. Nahara qatılan YAP nümayəndə heyətinin rəhbəri Ziyafət Əsgərovun ÇKP Mərkəzi Komitəsinin üzvü, ÇKP MK-nın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Liu Ciençao ilə söhbəti zamanı Azərbaycan ilə Çin arasındakı dostluq münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə olunub, ölkə liderlərinin əlaqələrin dərinləşməsində müstəsna rolunun əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycan-Çin münasibətlərinin hazırkı durumu və perspektiv imkanlardan danışılıb. Azərbaycanın "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğu xatırladılıb, Zəngəzur dəhlizinin reallaşdırılmasının regional və beynəlxalq önəmi diqqətə çatdırılıb. Söhbət zamanı Çin və Azərbaycanın ölkələrin ərazi bütövlüyü məsələsində sərgilədikləri mövqeyin dəyişməz olduğu vurğulanıb. Eyni zamanda, YAP-ÇKP əlaqələrinin iki ölkə arasındakı münasibətlərin inkişafındakı rolundan söz açılıb.

Daha sonra YAP-ın nümayəndə heyəti "Çin modernləşməsi: cəmiyyət və təbiətin harmoniyası" adlı sərgini ziyarət edib, eyniadlı partiyalararası beynəlxalq konfransda iştirak edib. Konfransda Çin modernizasiyasının səciyyəvi xüsusiyyətləri barədə təqdimat olub. Çıxışlar zamanı vurğulanıb ki, Çin modernləşməsi yeni inkişaf modelidir və xalqların xoşbəxt gələcəyinə hesablanıb. Bundan başqa, Çinin ekologiyanın qorunması sahəsində gerçəkləşdirdiyi layihələr haqqında ətraflı məlumat verilib.

Həmin gün YAP-ın nümayəndə heyəti Sançyanyuan Təbiət Qoruğu və Ekologiya üzrə Böyük Məlumat Mərkəzini də ziyarət edib.

Heydər Əliyev əsrinin 23-cü ili

# Xalqa xidmət nümunəsi

## Ucar rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib





"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində sentyabrın 12-də YAP Ucar rayon təşkilatı tərəfindən tədbir keçirilib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi dahi şəxsiyyətin çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin geniş təhlilində əhəmiyyətli rola malikdir. Ümummilli Liderin hakimiyyətinin hər iki dövrü dövlətə, xalqa xidmət nümunəsidir. Ulu Öndər Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edərək çoxəsrlik tarixinin Zəfər səhifəsinin yazılmasına nail oldu.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov Ümummilli Liderin dövlətimiz və xalqımız qarşısında xidmətləri sırasında hazırda cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasından, ümumxalq partiyası kimi nüfuz qazanmasından, partiyada gənclərin dinamizmi ilə yaşlı nəslin təcrübəsi arasında vəhdətin yaradılmasından geniş bəhs edib.

Milli Məclisin deputatı Jalə Əliyeva çıxışında bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin azərbaycançılıq məfkurəsi ilə dərkinin əsaslarını formalaşdırıb. Onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" çağırışı harada yaşamasından asılı olmayaraq dünya azərbaycanlılarını vahid amal uğrunda birləşdirdi. Bu gün böyük inamla qeyd edirik ki, Ulu Öndər Heydər Əliyevin ideyalarını uğurla gerçəkləşdirən Prezident İlham Əliyev diaspor quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Bu birlik, həmrəylik 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizi şərtləndirən mühüm amillər sırasındadır.

Milli Məclisin deputatı Ramil Həsən qeyd edib ki, müstəqillik dövründə Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi şöhrət qazanması Ümummilli Liderin mükəmməl quruculuq proqramının tərkib hissələri olub.

Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisi bütün dövrlər üçün aktuallığını qoruyur. Onun səyləri nəticəsində 1994-cü il 20 sentyabr tarixində imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi və siyasi mövqeyini möhkəmləndirdi. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi. Hazırda iqtisadiyyatın şaxələndirilməsi siyasətinin inamla həyata keçirilməsi neft strategiyasının uğurlu nəticəsidir.

Vətən müharibəsi şəhidi, leytenant, "Azərbaycan Bayrağı" ordenli Elnur Vəliyevin atası Əli Vəliyev, Birinci Qarabağ müharibəsinin əlili Rahib Rəsulov tarixi Zəfərimizdən geniş bəhs ediblər. Qeyd ediblər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərb tarixinə yeni səhifə yazan Azərbaycan bu gün dünyanın diqqətindədir.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri fərman, partiya sıralarına yeni qəbul olunanlara isə üzvlük vəsiqələri təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

# Milli Məclisin komitə iclasında...

## Valideyn himayəsindən məhrum olmuş gənclərə yeni güzəşt

Sentyabrın 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2023-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Komitə sədri Musa Quliyev sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib, onlara qarşıdakı fəaliyyətlərində uğurlar diləyib.



Gündəliyin təsdiqindən sonra komitə sədri Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edib. O, ötən sessiyalarda komitənin 11 iclasında 38 məsələyə baxıldığını bildirib, müzakirə olunan qanun layihələri barədə danışıb. Diqqətə çatdırılıb ki, hesabat dövründə komitəyə daxil olan ərizələr və şikayətlər üzrə müvafiq işlər görülüb.

Komitənin 2023-cü ilin payız sessiyası üçün iş planı barədə məlumat verən Musa Quliyev qeyd edib ki, bu sessiyada komitədə gələn ilin dövlət büdcəsi ilə bağlı məsələlərin, bir sıra qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi nəzərdə tutulub. Planda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyevin sosial siyasətinin təntənəsi" mövzusunda elmi-praktik konfransın keçirilməsi, həmçinin Səhiyyə komitəsi ilə birlikdə "Autizmin tibbi-sosial aspektləri və sosial müdafiə tədbirləri" mövzusunda dinləmənin təşkili öz əksini tapıb.

Sonra komitədə gündəlikdəki qanun layihələrinə baxılıb.

"Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən komitə sədri sənəddə BƏT-in orqanları olan Beynəlxalq Əmək Ofisinin idarə olunması, Beynəlxalq Əmək Konfransının prosedur qaydaları ilə bağlı təklif olunan dəyişikliklərdən danışıb.

Gündəliyin 4-cü məsələsi olan "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Musa Quliyev bildirib ki, layihədə valideyn himayəsindən məhrum olmuş və ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində yaşamış şəxslərin qanunvericiliklə müəyyən edilmiş hüquqlardan istifadənin əsasları təsbit olunub.

Gündəliyin sonuncu məsələsi olan Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev məlumat verib. O, sosial sığorta nömrəsinin istisnası halları, əmək müqavilələrində sınaq müddətinə qoyulan məhdudiyyətlər, işçilərin sosial sığorta münasibətlərinin tənzimlənməsi, həmçinin anlayışların konkretləşdirilməsi məqsədilə layihədə təklif olunan dəyişiklikləri diqqətə çatdırıb.

Komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri Səttar Möhbalıyev, Ziyad Səmədzadə, Əziz Ələkbərov, Sevinc Hüseynova, Vüqar Bayramov, Arzu Nağıyev və İlham Məmmədov çıxış edərək müzakirəyə çıxarılan məsələlər barədə fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

İclasda 2023-cü ilin yaz və növbədənkənar sessiyaları dövründə Əmək və sosial siyasət komitəsində görülən işlər məqbul hesab edilib, komitənin qarşıdakı payız sessiyası üçün iş planı təsdiq olunub.

Müzakirə olunan "Beynəlxalq Əmək Təşkilatının Nizamnaməsində dəyişiklik edilməsi haqqında 1986-cı il tarixli sənəd"in təsdiq edilməsi barədə qanun layihəsi, həmçinin birinci oxunuşda olan "Sosial xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə, o cümlədən Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Günel ABBAS*

# Dəhşətli rəqəmlər və mənəviyyatsız terror aktı...

Ermənistan bütün xəbərdarlıqlara baxmayaraq, sərhəddə və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində müxtəlif təxribatlar törətməyə davam edir.

Yeri gəlmişkən, Müdafiə Nazirliyinin məlumatına görə, sentyabrın 11-i saat 08:30 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Xocavənd rayonu istiqamətində döyüş növbətçiliyi aparan hərbi qulluqçularına qarşı itdən sui-qəsdçi kimi istifadə etməklə terror aktı törətməyə cəhd göstəriblər. Bildirilib ki, qeyri-qanuni erməni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğu bağlayaraq mövqelərimiz istiqamətində hərəkət etməyə məcbur ediblər.

Sentyabrın 12-si saat 11:25 radələrində isə Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində erməni silahlılarının terror-təxribat əməlinin miqyasını böyütmək və şəxsi heyətə daha çox xəsarət yetirmək məqsədilə mövqelərimizə daxil olan itin üzərindəki əldədüzəlmə partlayıcı qurğunu işə salmaq cəhdinin qarşısı alınıb. Bu təxribatı adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyanın Minaların, mina-tələlərinin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında protokoluna zidd olan əməl kimi qətiyyətlə pisləyirik. Heyvanlardan sui-qəsd məqsədilə istifadə olunması mənəviyyatsız hərəkətdir və bunu terror aktı kimi qiymətləndiririk.

## Ermənistanın əxlaqsız terror aktı

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan silahlı qüvvələrinin və marionet rejiminin qanunsuz qüvvələrinin məsafədən idarə edilən bomba qoyulmuş itlərdən istifadə etməklə Azərbaycana qarşı törətdiyi hərəkəti növbəti əxlaqsız terror aktı kimi qiymətləndirib: "1991-ci ildən bu günə kimi 3385 azərbaycanlı Ermənistanın basdırdığı minaların qurbanı olub. Bunlar Ermənistanın Azərbaycana qarşı sistemli və məqsədyönlü şəkildə mina terroru siyasətinin dəhşətli rəqəmləridir. Ermənistan və qeyri-qanuni marionet xunta rejimi Ermənistanda istehsal olunan minaları "boz zona"nın bütün perimetrləri boyunca yerləşdirməyə davam edir". - H.Hacıyev qeyd edib.

O, Ermənistanın Azərbaycana qarşı sistemli və məqsədyönlü mina terroru siyasətinin dəhşətli (qorxunc) rəqəmlərini əks etdirən cədvəl də paylaşıb.




## Beynəlxalq ictimaiyyət qınanmalıdır

Hərbi ekspert Ramil Məmmədli "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, sentyabrın 11-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Xocavənd rayonu istiqamətində döyüş növbətçiliyi aparan hərbi qulluqçularına qarşı itdən sui-qəsdçi kimi istifadə etməklə terror aktı törətməyə cəhd göstərməsi olduqca təəssüf və hiddət doğuran hadisədir.

O qeyd edib ki, bu hadisə beynəlxalq hüququn bir neçə sənədinin tələblərinə ziddir: "Adi silahların məhdudlaşdırılması və ya bəzi növlərinin qadağan edilməsinə dair 1980-ci il Cenevrə Konvensiyasının 1996-cı il əlavələrində, konkret olaraq, 2 saylı protokolunda minalar və mina tələlərinin istifadə edilməsinin qadağan olunmasına dair tələbin müddəalarına, həmçinin 2018-ci ildə qəbul olunmuş heyvanların hüquqları və sağlamlıqlarının qorunmasına dair BMT Konvensiyasına birbaşa zidd olan hərəkətdir. Bu mənada hadisəni törədənlər beynəlxalq ictimaiyyət tərəfindən qınanmalıdır".

Hərbi ekspert bildirib ki, vətəndaşlar bu mövzuda daha ayıq-sayıq olmalı, maarifləndirmə tələblərinə ciddi əməl etməlidir. Eləcə də Ermənistan tərəfindən törədilən qanunsuz əməlləri beynəlxalq ictimaiyyətə çatdırmalı və bu kimi hadisələrin qətiyyətlə pislənilməsinə nail olmalıyıq.

*Günel ABBAS*

# Yeni fərman!

## “Yararsız”lar xidmətdən yayına bilməyəcəklər...

Bu günlərdə Prezident İlham Əliyev hərbi xidmətə çağırışla bağlı olduqca vacib fərman imzalayıb. Yeni qaydalara əsasən, çağırışçıların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSM) tərəfindən aparılacaq.

Ölkə qanunvericiliyinə əsasən, müddətli həqiqi hərbi xidmətə çağırılan bütün vətəndaşlar müvafiq icra hakimiyyəti orqanında həkim mütəxəssislər tərəfindən tibbi müayinədən keçirilirlər. İndiyədək bu vəzifəni Səfərbərlik Xidmətinin nəzdində olan hərbi həkim komissiyası həyata keçirirdi. Vətəndaşın həqiqi hərbi xidmətə yararlı olub-olmamasını bu qurum aydınlaşdırırdı.

Fərmanda nəzərdə tutulan müddəalar 2024-cü il iyulun 1-dən qüvvəyə minəcək. Həmin yekun tibbi müayinə nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən aparılacaq.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şöbə rəisi Pərviz Sədrəddinov bildirib ki, 6 ay ərzində fərmanın icrasını təmin etmək məqsədilə işçi qrup yaradılacaq və texniki məsələlər həll ediləcək: “Nəticədə müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yararlılığının müəyyən edilməsi prosesi daha rahat həyata keçiriləcək. Eyni zamanda bu sahədə şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması əldə ediləcək”.

Qeyd edək ki, zaman-zaman yekun tibbi müayinə prosesində bir çox korrupsiya və rüşvətin olması barədə iddialar səsləndirilib. Belə ki, çağırışçılar müxtəlif yollarla “yararsız” hərbi bileti əldə edirdilər. Yeni fərmanın isə bu kimi halları aradan qaldıracağı gözlənilir.

**Ordumuzun sıraları daha da sağlamlaşdırılır**

Millət vəkili Elman Məmmədov “Yeni Azərbaycan”a açıqlamasında sözügedən fərmanın mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu fərmanın imzalanmasında bir məqsəd var- hərbi xidmətə çağırış zamanı tibbi komissiyalar tərəfindən yol verilən neqativ halların aradan qaldırılması: “Adətən gənclərimizin hərbi xidmətə çağırışı olan zaman onlar kiçik problemlərə görə xidmətdən yayınırlar. Yaxud elə gənclərimiz var ki, sağlamlığında hansısa problemlər var, lakin özü hərbi xidmətə getmək istəyir, buna baxmayaraq, tibbi komissiyalar onlara mane olur. Yeni fərmanda bu da nəzərdə tutulub ki, çağırışçılar içərisində sağlamlıq problemi olanlar var, ancaq onlar dinc dövrdə hərbi xidmətə yararlıdır, yaxud müharibə dövründə arxa cəbhədə hərbi xidmətdə ola bilərlər. Bu kateqoriyaların hamısına yeni fərmanla aydınlıq gətirilir. Qeyd edim ki, fərman Prezidentin vacib və vaxtında imzaladığı rəsmi sənəddir. Ümumi məqsəd hərbi çağırş zamanı məntəqələrdəki həkim-tibb komissiyaları tərəfindən yol verilən neqativ halların aradan qaldırılmasına yönəlib. Təbii ki, bütün bunlar ordumuzun sıralarının daha da sağlam gənclərimizlə təmin olunmasına istiqamətlənir”.



**“Yararsız”lara pis xəbər**

Hərbi ekspert Ədalət Verdiyevin fikrincə, yeni fərman sayəsində ölkəmizdə hərbi xidmətə çağırışla bağlı uzun illər mövcud olan neqativ halların aradan qaldırılması üçün mühüm addımlar atılacaq: “Məlumdur ki, daha əvvəl Səfərbərlik Xidmətinin əməkdaşları və müvafiq sahənin bəzi həkimləri tərəfindən müxtəlif rüşvət qarşılığında çağırışçıların xidmətə yararsız diaqnozu ilə rastlaşırdıq. Adətən bu diaqnoz altında çağırışçılar sülh dövründə yararsız, müharibə dövründə isə məhdud yararlı diaqnozu ilə hərbi xidmətdən yayındırılırdı. Adətən elə bir xəstəlik təyin olunurdu ki, daha sonra sağalma olsun. Bunu da çağırışçını başqa qurum yoxladıqda onlara cavab verə bilsinlər deyə edirdilər. Yəni onlara niyə yararsız yazdıqları soruşulduqda müalicə alıb sağalıb deyə bilirlər. Bəzən də sağlamlığı yerində olmayan əsgərlər xidmətə göndərilirdi. Belə hallarla da rastlaşırdıq və şikayətlər kifayət qədər çox idi. Görünür, ölkə başçısı da bu məsələlərdən xəbərdar oldu. Burada 4 kateqoriya var: yararlı, məhdud yararlı, sülh dövründə və müharibə dövründə yararlı. Bütün bu yararlılıq dərəcələrini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi təyin edəcək”.

**Yaşı 30-dan çox olanlar...**

Ə.Verdiyev bildirib ki, ƏƏSM-nin Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində müvafiq komissiyalar bu məsələlərə daha ciddi şəkildə yanaşacaq: “Buna heç bir şübhəmiz yoxdur. Ən azından son illər ərzində bu qurumdan bir dəfə olsun rüşvət, korrupsiya faktı ilə bağlı şikayət eşitməmişəm. Odur ki, ümid edirəm bundan sonrakı dövrdə yaşı çatan, səhhəti, sağlamlığı imkan verən şəxslər artıq hərbi xidmətdən yayına bilməyəcəklər. Eyni zamanda əvvəlki illərdə sağlam olduqları halda “yararsız” diaqnozu ilə xidmətdən kənarda qalanlar hər 3 ildən bir təkrar komissiya çağırıldıqda dəqiqlik və dərinliklə yoxlanılacaq. Beləliklə, onların içində yararlı olanlar hərbi xidmətə göndəriləcəklər. Başqa sözlə desək, növbəti illərdə hətta yaşı 30-un üzərində olan şəxslərin də orduda xidmət etdiyinin şahidi olacağıq”.

*Yeganə BAYRAMOVA*

# BMT-nin Cenevrə bölməsində “Azərbaycan” otağı

## Layihə Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Ceyhun Bayramovun Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Miryana Spolyariç Eqqer ilə görüşü zamanı regiondakı son vəziyyət fonunda Azərbaycan ilə BQXK arasında əməkdaşlığın hazırkı durumu, mövcud çağırışlar və gələcək perspektivlər barədə müzakirələr aparılıb.

### Ceyhun Bayramov BQXK-nın prezidenti ilə görüşüb

Beynəlxalq humanitar vasitəçi kimi BQXK-nın rolu qeyd edilib, Azərbaycanın BQXK ilə əməkdaşlığında münaqişədən əziyyət çəkən insanlara dəstək, itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması, işğaldan azad edilmiş ərazilərdə mina və partlayıcılar barədə maarifləndirmə kimi istiqamətlərin böyük əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Bununla yanaşı, Azərbaycan qanunvericiliyinə və müvafiq prosedurlara əməl etməklə BQXK vasitəsilə erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi və Laçın-Xankəndi yolundan paralel istifadənin zəruriliyi vurğulanıb. Əldə olunmuş razılıqlara baxmayaraq Ermənistanın və onun yaratdığı qondarma rejimin bu razılıqları kobud şəkildə pozduğu xatırlanıb. Hazırda Laçın yolundan gündəlik əsasda hər iki istiqamətdə erməni sakinlərin keçidinin təmin edildiyi halda Ermənistanın “blokada” iddialarının əsassız olduğu vurğulanıb. Ümumiyyətlə, Azərbaycan vasitəsilə əraziyə yüklərin daşınmasına maneçilik törədilməsinin siyasi manipulyasiya, Ermənistanın separatçılığı qızışdırmaq cəhdlərinin tərkib hissəsi olduğu qeyd edilib.



Görüş zamanı, həmçinin 44 günlük müharibədən sonra Ermənistanın Laçın yolu vasitəsilə mina və silahların daşınması, hərbi qulluqçuların rotasiyası kimi qanunsuz fəaliyyətləri xatırlanıb.

### Azərbaycan BMT çərçivəsində aktiv fəaliyyət göstərir

Ceyhun Bayramov səfər çərçivəsində BMT-nin Cenevrədəki Ofisinin (UNOG) baş direktoru Tatyana Valovaya ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-UNOG əməkdaşlığının müxtəlif istiqamətləri, eləcə də regional məsələlər müzakirə edilib. Azərbaycan ilə UNOG arasında əməkdaşlıqdan məmnunluq ifadə olunaraq, UNOG-un insan hüquqları, gənclər, gender bərabərliyi, dayanıqlı inkişaf məqsədləri, ətraf mühitin mühafizəsi, iqtisadi inkişaf kimi istiqamətlər üzrə fəaliyyətlərinə dəstək ifadə olunub.

Azərbaycanın öz növbəsində BMT çərçivəsində aktiv fəaliyyət göstərdiyi, 2023-cü ildə BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramına (SPECA) sədrlik etdiyi və cari ilin noyabr ayında Bakıda SPECA-nın sammitinin baş tutacağı diqqətə çatdırılıb. Sülh və təhlükəsizliyin təşviqi, humanitar, sosial-iqtisadi inkişafda bərabərlik kimi prinsiplərin Azərbaycanın SPECA ilə yanaşı, Qoşulmama Hərəkatında sədrliyi və digər beynəlxalq təsisatlardakı təşəbbüslərinin əsas meyarlarını təşkil etdiyi diqqətə çatdırılıb.

Xanım Valovayanın 2022-ci ildən etibarən Azərbaycana baş tutmuş səfərləri və bu səfərlər çərçivəsində keçirilmiş ali və yüksək səviyyəli görüşlər məmnunluqla xatırlanıb və Azərbaycanın Cenevrədəki Daimi Nümayəndəliyi, habelə ölkəmizin digər qurumları ilə UNOG arasında əməkdaşlığın gücləndirilməsi üçün yaratdığı şəraitə görə UNOG-un rəhbərinə minnətdarlıq bildirilib.

Görüş zamanı bölgədəki vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi barədə qarşı tərəfə məlumat verilib. Postmünaqişə dövründə Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistanın təxribatları diqqətə çatdırılıb. Ölkəmizə qarşı mina təhdidləri xüsusi vurğulanıb. Bölgədə “humanitar vəziyyət” və “blokada” barədə iddiaların əsassızlığı barədə faktlar qeyd edilib.





### BMT-nin Cenevrə Ofisində az sayda ölkə öz otağını yaradıb

Xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsində yeni dizayn və konsepsiya əsasında bərpa olunmuş “Azərbaycan” otağının açılışını da edib. Açılışda BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, bir sıra ölkələrin Cenevrədəki daimi nümayəndələri iştirak ediblər.

Tədbir zamanı çıxış edən nazir Ceyhun Bayramov və baş direktor Tatyana Valovaya BMT-nin Cenevrədəki Ofisinin səmərəli fəaliyyət göstərməsi üçün “Azərbaycan” otağının olduqca faydalı töhfə olduğunu vurğulayıblar.

2007-ci ildə Heydər Əliyev Fondu tərəfindən yaradılan otağın təmirinə 2022-ci ildə başlanıb. Ən yüksək texnologiyalar əsasında təmir edilən otaqda çox sayda monitor, kamera, audio-video avadanlıq və aksesuar quraşdırılıb. Otaq, həmçinin qabaqcıl proqramlaşdırma ilə təmin olunub. Yaradılan texnoloji həllər qlobal şəkildə sinxronlaşdırılmış görüşlərin, təqdimatların və iclasların keçirilməsinə imkan verir.

Otağın tərtibatında milli elementlərə də xüsusi yer ayrılıb. Otağın girişindən etibarən Azərbaycanın tarixini, zəngin təbiətini əks etdirən fotolar, habelə şəbəkə elementləri ilə dizayn edilib. Həmçinin Azərbaycanın memarlığını nümayiş etdirən fotolar xüsusi dizaynla təqdim edilib. Bundan əlavə, Qarabağ xalçası, şəbəkə eksponatı, muğam musiqisi alətləri nümayiş etdirilir.

Layihə Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Xatırladaq ki, BMT-nin Cenevrə Ofisində çox az sayda ölkə öz otağını yaratmağa nail olub. Ölkə otaqları BMT-nin müxtəlif tədbirləri zamanı fərqli sessiyaların, iclasların və müxtəlif formatlı görüşlərin keçirilməsi üçün istifadə olunur. Bu baxımdan, belə mötəbər bir binada “Azərbaycan” otağının fəaliyyəti ölkənin təqdimatı baxımından yüksək önəm kəsb edir.

*Nardar BAYRAMLI*

# Dünya azərbaycanlılarını birləşdirən dəyər!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

Son dövrlər diaspor və lobbiçilik fəaliyyəti aktuallığını daha da artırır və qarşıya qoyulan əsas hədəflər sırasına daxil olur.

Müasir dünyada diaspor təşkilatlarının formalaşdırılması və fəaliyyətlərinin genişləndirilməsi istənilən ölkənin prioritet məsələləri sırasındadır. Əlbəttə ki, bu sırada Azərbaycan da istisna deyil. Dünyanın çox sayda ölkələrində məskunlaşan soydaşlarımızın təşkilatlandırılması istiqamətində ciddi addımlar atılır.

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən Diaspor İnformasiya Mərkəzinin sədri Toğrul Allahverdili bildirib ki, beynəlxalq münasibətlər sistemində hər bir dövlətin öz yerini və rolunu dövlət maraqları çərçivəsində müəyyən etməsi üçün bir sıra şərtlər var. Onun sözlərinə görə, son illər Azərbaycanın diaspor və lobbiçilik fəaliyyətində bəzi dəyişikliklər baş verib: “Bu gün Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan soydaşlarımızın bir arada cəmləşməsinə nail olub. Azərbaycanın haqq səsinin dünyaya çatdırılması üçün mühüm işlər görülür. Əgər bu gün diaspor quruculuğu lazımi səviyyədə həyata keçirilməsəydi, xalqımıza qarşı olan soyqırımlar, barədə məlumatları beynəlxalq səviyyədə təbliğ edə bilməzdik. Hesab edirəm ki, ciddi nəticələr əldə etmişik və gələcək illərdə də bu sahədə olan problemləri həll edə biləcəyik. Yaşadığı ölkədən asılı olmayaraq, hər bir azərbaycanlı dövlətimizin milli maraqlarını üstün tutmalı, Vətənin inkişafı naminə bacardığını etməlidir”.

T.Allahverdili Azərbaycanın müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə uğurlar qazandığını qeyd edib. Bunlardan biri də azərbaycanlıların xüsusilə kompakt yaşadığı bütün dövlətlərdə diaspor fəaliyyətinin qurulması və onların koordinasiya olunmasıdır: “Eyni zamanda, dünyanın aparıcı ölkələrində, Rusiya, Türkiyə, eləcə də ABŞ-da Azərbaycan dövlətinin maraqları prizmasından lobbiçilik fəaliyyəti göstərə biləcək qurumlar və şəxslərlə milli maraqlarımıza birgə xidmət edə biləcəyimiz qarşılıqlı əlaqələr formalaşdırılıb. Hesab edirəm ki, ötən 30 ildə dünya azərbaycanlılarının səylərinin birləşdirilməsi istiqamətində əsaslı işlər həyata keçirilib. Dünya azərbaycanlıları ilin bütün günlərində Azərbaycan maraqlarının təminatına çalışmalı və hazırki gərgin dönəmdə ölkəmizin dünyadakı nüfuzunun qorunması baxımından güclərini daha da birləşdirməlidirlər”.




Mərkəz sədri qeyd edib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq, biz Azərbaycan dövlətinin maraqlarının təmin olunmasına, diaspor və lobbiçilik fəaliyyətinin uğurlu icrasına nail olmuşuq: “Azərbaycan regionun, eləcə də dünyanın nüfuzlu və əhəmiyyətli dövlətlərindən birinə çevrilib. Bu gün Cənubi Qafqazda Azərbaycan dövlətinin maraqlarını və istəklərini nəzərə almadan hansısa layihəni nəinki həyata keçirmək, hətta planlaşdırmaq belə olmaz. Azərbaycanın təmin olunmuş hüquqlarının qorunması və bir daha pozulmaması üçün kənar müdaxilələri vaxtında aşkar edib qarşısını ala bilmək üçün bundan sonra da dünya azərbaycanlıları arasında əlaqələr daha sıx şəkildə koordinasiya olunmalıdır”.

T.Allahverdilinin sözlərinə görə, Azərbaycan diasporunun rolunu 44 günlük müharibə dönəmində də, torpaqlarımızın işğaldan azad olunduğu vaxt da müşahidə etmiş olduq: “Dünyanın bir çox ölkələrində, xüsusilə həmin ölkələrin səfirlikləri qarşısında Azərbaycan əleyhinə aksiya keçirən erməni təşkilatlanmasının da qarşısına məhz Azərbaycan diasporu çıxdı, onlarla mübarizə apardı, onları yerindəcə susdurdular. Beləliklə, diasporumuz bizim haqlı tərəf olduğumuzu bütün dünyaya bəyan etdi. Ölkə rəhbərinin dövlətimizin diaspor quruculuğuna, lobbiçilik fəaliyyətinə hansı səbəbə görə önəm verdiyini və qayğı ilə yanaşdığını hər kəs çox yaxşı başa düşür. Eyni zamanda onu da başa düşürük ki, qloballaşan dünyamızın reallıqları diaspor quruculuğu sahəsində qarşıya yeni vəzifələr qoymaqdadır. Bilirik ki, hazırda diaspor anlayışının beynəlxalq münasibətlərin vacib elementinə çevrilməsi də təsadüfi deyil, qarşıya qoyulan həmin yeni vəzifələrdən irəli gəlir. Xüsusən də xalqlar arasında sürətli inteqrasiya prosesləri getdiyi zamanda diaspor təşkilatlarının beynəlxalq siyasətdə rolunu etiraf etməmək mümkün deyil. Çünki məhz diaspor təşkilatlarının rolunun artması onların genişmiqyaslı fəaliyyət göstərilməsini tarixi zərurətə çevirib. Deməli, getdikcə diaspor quruculuğunun, lobbiçiliyin və həmrəyliyimizin daha da gücləndirilməsi öz aktuallığını qoruyur və prioritet olaraq qalır.

# Telefon diplomatiyası

## Ərdoğan və Paşinyan hansı məsələləri müzakirə ediblər?



*Mübariz ABDULLAYEV*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasında telefon danışığı baş tutub. Telefon danışığının təfərrüatları ilə bağlı geniş məlumat verilmir. Türkiyənin Anadolu Agentliyinin yaydığı xəbərdə bildirilir ki, Türkiyə-Ermənistan münasibətlərinin və regional məsələlərin müzakirə edildiyi telefon danışığında, həmçinin bölgədə davamlı sülh və sabitliyin bərqərar olunmasının bütün region ölkələrinin inkişafı və rifahına töhfə verəcəyi vurğulanıb. Bu istiqamətdə diplomatik səylərin davam etdiriləcəyi qeyd olunub.

Telefon söhbəti barədə sualı cavablandıran Ermənistanın baş naziri Nikol Paşinyan isə bildirib ki, danışıq çox dolğun və vacib olub. "Qarşılıqlı anlayış var ki, hər zaman müəyyən nüanslar üzərində ünsiyyət olmalıdır", - deyə N.Paşinyan qeyd edib.

Türkiyə və Ermənistan liderlərinin telefon danışığı ilə bağlı yayılan rəsmi məlumatlar qısa olsa da, müzakirələrin əhatə dairəsinin kifayət qədər geniş olduğu ilə bağlı ehtimallar böyükdür. Əslində, belə bir müzakirənin aparılmasına zərurət yaranmışdı. Çünki məğlub Ermənistanın davranışları birmənalı qarşılanmır. Bu ölkənin apardığı işğalçılıq siyasəti 30 il ərzində regionu ciddi təhdidlər altında saxlayıb, müharibə riskləri yaradıb, əməkdaşlığın genişlənməsinə maneələr yaradıb. Ermənistan özünün aqressiv siyasətindən postmüharibə mərhələsində də əl çəkmək istəmir. Bu ölkə xaricdəki havadarlarının dəstəyi ilə yeni müharibə hazırlıqları görür, silahlar tədarük edir. Son vaxtlarda Ermənistanın Azərbaycanla şərti sərhədlərdə törətdiyi təxribatların sayı artıb. Baş verənlər 2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi ərəfəsində cərəyan edən prosesləri xatırladır. Təbii ki, regionda və bütün dünyada söz sahibi olan, NATO-da ikinci ən böyük orduya malik olan Türkiyə Ermənistanın sülh prosesini pozmasından, yeni müharibə siqnalları verməsindən narahatdır. Heç şübhəsiz ki, Prezident R.T.Ərdoğan N.Paşinyanla telefon danışığında ölkəsinin bu qəbildən olan narahatlığını ifadə etməklə öz mesajlarını Ermənistan liderinə çatdırıb. N.Paşinyan bu mesajlardan dərsini almalıdır. Məğlub Ermənistanın qarşısında dayanan yeganə seçim Azərbaycana və Türkiyəyə ərazi iddialarından geri çəkilməkdir. Belə iddiaların və pozuculuq fəaliyyətinin davam etdirilməsi bu ölkənin özü üçün daha böyük faciələrə yol aça bilər.

Böyük ehtimalla telefon danışığında Ermənistanın üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərdən geri çəkildiyi də N.Paşinyanın diqqətinə çatdırılıb. Həmin sənədə uyğun olaraq kommunikasiyaların, o cümlədən də Zəngəzur dəhlizinin açılması Türkiyənin də iqtisadi və siyasi maraqlarına daxildir. Bu marşrut hazırda aktuallığı artan Orta Dəhlizi Türkiyə üzərindən Avropaya birləşdirəcək. Dəhlizin işə düşməsindən bütün region dövlətləri faydalanacaqlar. Ermənistan isə region dövlətlərinin maraqlarına qarşı çıxır. Bu ölkə müharibənin başa çatmasından üç ilə yaxın vaxt ötsə də, indiyədək kommunikasiyaların açılması istiqamətində hansısa bir əməli addım atmayıb. Ancaq Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi mütləq açılacaq.

Bu gün Türkiyə regionun aparıcı dövlətlərindən biridir, qlobal güc amili qismində çıxış edir. Yuxarıda vurğuladığımız kimi, bu ölkənin hərbi potensialı da kifayət qədər böyükdür. Bunları nəzərə aldıqda Ərdoğanın Paşinyanla telefon müzakirələrində sərt ritorika ilə danışdığı fikrini qətiyyətlə ifadə edə bilərik. N.Paşinyanın diqqətinə çatdırılıb ki, Ermənistanın Türkiyənin sərhədləri yaxınlığında yeni müharibə alovlandırmağa cəhd göstərməsi yolverilməzdir. Türkiyə Azərbaycanla 2021-ci ilin yayında Şuşa Bəyannaməsi imzalayıb. Bu Bəyannamənin müddəalarına uyğun olaraq Türkiyə Ermənistanın Azərbaycana qarşı yeni təxribatlarına seyirçi qalmayacaq.

# Təəssüf edirik...

## QAİ: ABŞ hökumətindən Ermənistanın bizim İcma ilə məzmunlu dialoq aparmağa başlamasını təmin etməyi xahiş edirik

Amerika Birləşmiş Ştatlarının (ABŞ) bizim haqq işimizə heç bir məhəl qoymaması onun insan hüquqlarına sadiqliyinə ziddir. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

"Biz Amerika Birləşmiş Ştatlarının (ABŞ) Dövlət katibi Antoni Blinkenin 2023-cü il sentyabrın 10-da verdiyi bəyanatı qeydə aldıq. O, bəyanatında Ermənistan və Azərbaycan arasında istənilən sülh razılaşmasının Azərbaycanın Qarabağ bölgəsinin sakinlərinin hüquqlarını və təhlükəsizliyini qorumalı olduğunu vurğulayır və Bakı ilə Qarabağın sakinləri arasında dialoqa çağırış edir.

Biz çox təəssüf edirik ki, Dövlət katibi Blinken Ermənistandan zorla qovulmuş azərbaycanlıların məsələsinə toxunmayıb. Məlumdur ki, Ermənistan öz ərazisindən azərbaycanlıların hamısını zorla çıxarıb və onları öz evlərinə qayıtmaq hüququndan məhrum etməkdə davam edir. Ermənistan bu məsələdə Qərbi Azərbaycan İcması ilə dialoqa belə razılıq verməyib.

Bunun əksinə olaraq, Azərbaycan 2020-ci ildə müharibə başa çatdıqdan dərhal sonra ermənilərin Qarabağ bölgəsinə qayıtmasına şərait yaratmışdır. Azərbaycan, həmçinin Qarabağda yaşayan ermənilərlə təmaslar istiqamətində fəal addımlar atır və onları cəmiyyətə inteqrasiya etməyə çalışır. Bundan əlavə, ermənilər Qarabağ bölgəsindən kənar Azərbaycanın ərazilərində tamhüquqlu vətəndaş kimi yaşayırlar.

Bu konteksti nəzərə alsaq, ABŞ-ın bizim haqq işimizə heç bir məhəl qoymaması onun insan hüquqlarının qlobal miqyasda müdafiəsi ilə bağlı bəyan etdiyi sadiqliyinə ziddir. Bu, ondan xəbər verir ki, ya ABŞ-ı etnik azərbaycanlıların insan hüquqları maraqlandırmır, ya da bu dövlət, əhali qrupunun etnik təmizləməyə məruz qalmasından sonra onun taleyi ilə maraqlanmağı dayandırır. Bu, bizdə ciddi narahatlıq doğurur. Dövlət katibi Blinkenə məktubla müraciət etməyimizi və onun cavabsız qalmasını nəzərə alsaq, ABŞ hökumətinin bu mövqeyi xüsusilə məyusedicidir.

Biz təkidlə ABŞ hökumətini insan hüquqları məsələsində ayrı-seçkilik yanaşmasına son qoymağa və Ermənistandan qovulmuş azərbaycanlıların qanuni evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasını dəstəkləməyə çağırırıq. Biz, həmçinin ABŞ hökumətindən Ermənistan üzərində təsir imkanlarından istifadə edərək bu dövlətin bizim İcma ilə məzmunlu dialoq aparmağa başlamasını təmin etməyi xahiş edirik", - deyə bəyanatda vurğulanıb.

# UNWTO -nin Baş Assambleyasının sessiyası Özbəkistanda keçiriləcək

BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) Baş Assambleyasının 25-ci Yubiley sessiyasının oktyabrın 16-20-də Səmərqənddə keçirilməsi gözlənilir. Özbəkistan tarixində ilk dəfə BMT Baş Assambleyası sisteminin ən vacib tədbiri hesab olunan sessiyanın qonaqlarını qəbul edir.

Bu barədə Özbəkistan Ekologiya, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsinin sədri Umid Şadiyevin açıqlamasında bildirilir.

**Sessiya iki ildən bir keçirilir**

Forum turizm sahəsində fəaliyyət göstərən dövlət orqanlarının rəhbərlərini, beynəlxalq təşkilatları və dünyanın 160-a yaxın ölkəsinin turizm biznesinin nümayəndələrini bir araya gətirəcək.

Tədbirdə Səudiyyə Ərəbistanı, Albaniya, Azərbaycan, Baham adaları, Bəhreyn, Qvatemala, Haiti, Kot-d ' İvuar, İndoneziya, Monako, Niger, Panama, Portuqaliya, Sierra Leone, Ukrayna, Uruqvay və Yəmən kimi ölkələrin turizm təşkilatlarının, idarələrinin rəhbərlərinin iştirakı gözlənilir.

Qeyd edək ki, Özbəkistan yaxın 2023-2027-ci illər üçün BMT-nin İcraiyyə Şurasının səlahiyyətlər komitəsinə qəbul edilib. Bu, o deməkdir ki, Özbəkistana UNWTO İcraiyyə Şurası tərəfindən qəbul edilmiş vacib qərarların və sənədlərin həqiqiliyinə və prinsiplərinə əməl olunmasına nəzarət etmək səlahiyyəti verilib.

"Beynəlxalq səviyyədə göstərilən bu etimad təkcə ölkəmizin dünya turizm bazarındakı mövqeyinin möhkəmliyini deyil, həm də beynəlxalq münasibətlərdə fəaliyyətinin səmərəliliyini göstərir.

Özbəkistanda Baş Assambleyanın sessiyasının keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artırılması, beynəlxalq təşkilatlarla əmək-




daşlıq sahəsinin daha da genişləndirilməsi, ölkənin mədəni və turizm potensialının təbliği üçün yeni imkanlar açır", - deyə Şadiyevin açıqlamasında bildirilir.

Baş Assambleyanın 25-ci sessiyası çərçivəsində turizm sahəsində beynəlxalq əməkdaşlıq məsələləri plenar iclaslarda və bir sıra digər irimiqyaslı konfranslarda müzakirə olunacaq.

"Xüsusilə, UNWTO çərçivəsində təşkil edilməsi planlaşdırılan İnvestisiya Forumunda ölkəmizə ünvanlı investisiyaların cəlb edilməsi, Özbəkistanın bütün bölgələrində yüksək investisiya potensialı olan obyektlərin, ərazilərin, layihələrin təqdimatı ilə bağlı bir çox mühüm işgüzar sazişlərin əldə edilməsi gözlənilir. Forum qlobal maraqlı tərəfləri və investorları turizm imkanlarını araşdırmaq üçün bir araya gətirir və ölkəmizdə yaradılan əlverişli investisiya mühitini və xarici investisiyaların cəlb edilməsi üçün möhkəm hüquqi bazanı və iştirakçılar arasında əməkdaşlığı inkişaf etdirməyi hədəfləyir.

İnvestisiya Forumundakı əsas sessiyalarda məqsəd ölkəmizin dünya birliyindəki investisiya mühiti barədə müsbət rəy formalaşdırmaq, böyük xarici investorların Özbəkistana investisiya qoyuluşuna marağını artırmaqdır. Tədbirin nəticələrinə əsasən ölkəmizə qoyulan investisiyaların həcminin artırılması, ölkəmizin investisiya potensialının daha da artırılması və sektorlar arasında əməkdaşlığın qlobal səviyyədə möhkəmlənməsinə nail olunmaqla davamlı inkişafa töhfə verəcəyi gözlənilir.

Eyni zamanda, Özbəkistanın zəngin mədəni irsini və təbii sərvətlərini qoruyaraq ölkəmizin iqtisadi inkişafına töhfə verəcək investisiyaların cəlb edilməsi planlaşdırılır.

Baş Assambleyanın sessiyası çərçivəsində keçirilməsi gözlənilən Təhsil Forumu turizm sektorunda təhsilin hazırkı vəziyyətini nümayiş etdirəcək, bacarıqların inkişafına və hər kəs üçün inklüziv imkanların yaradılmasına sərmayə qoymağın nə qədər vacib olduğunu nümayiş etdirəcək.

*Şahanə*

# Paşinyan devrilir?

## "Tələbələr" Qarabağı tərk edirlər...

*N.BAYRAMLI*

Ermənistanın Qarabağda olan qeyri-qanuni hərbi birləşmələrinin üzvləri "tələbə" adı ilə kütləvi şəkildə Xankəndini tərk edir. Bugünlərdə Laçın sərhəd-buraxılış postundan Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələrinin əhatəsində olan bu "gənclər" "tələbə" olduqlarını və İrəvan Dövlət Universitetinə dərsə tələsdiklərini iddia ediblər. Lakin ən azı onların zahiri görünüşü və yaş həddi tələbə olmadıqlarını deməyə əsas verir.

Maraqlıdır ki, həmin hərbçilərin gizlincə və mülki formada "tələbə" adı ilə Qarabağdan çıxarılmasını kim təşkil edib? Bu barədə iki ehtimal irəli sürülür. Birincisi, bəzi KİV-lər məlumat verib ki, onlar Paşinyanın Dilicandan olan həmyerliləridir və bu səbəbdən baş nazir bölgədə mövcud gərginlik fonunda öz həmyerlilərinin həyatını xilas etmək üçün bu addımı atıb. Amma digər ehtimal daha



inandırıcıdır. Bu da Paşinyanın hakimiyyətdən devrilməsi üçün planın tərkib hissəsi olmasından ibarətdir. Nəzərə alaq ki, Paşinyan hakimiyyəti ilə Rusiya arasında qarşıdurma açıq müstəviyə keçib və erməni mediasında Moskvanın Ermənistanda hakimiyyət dəyişikliyi etməyə çalışdığı bildirilir. Hətta Rusiyanın Ermənistandakı "Vaqner" qruplaşmasını aktivləşdirdiyi və hakimiyyətə qarşı addımlarda istifadə edəcəyi iddiaları yayılır. O da məlumdur ki, rəsmi Moskva Ermənistan-ABŞ birgə hərbi təlimlərinin keçirilməsinə də sərt reaksiya verib.

Bütün bunların fonunda Ermənistanda hakimiyyət dəyişikliyinin yenə də "Qarabağ kartı" üzərindən həyata keçirilməsi versiyası səsləndirilir. Belə ki, Qarabağda separatçıların rəhbərliyinin dəyişməsi, Paşinyanın adamı kimi tanınan Araik Arutyunyanın "istefaya" məcbur edilməsi və Bako Saakyanın yaxın adamı kimi tanınan Samvel Şahramanyanın separatçılara rəhbər "seçilməsi" həmin ehtimalı gücləndirir.

Digər tərəfdən, Rusiyanın Qarabağa xüsusi missiya ilə göndərdiyi milyarder Ruben Vardanyan da Ermənistanda hakimiyyət dəyişikliyinə dəstək verəcəyini açıq şəkildə elan edib. Onun sözlərinə görə, hazırda Ermənistanı idarə edənlər səriştəsizdirlər, nə etdiklərini başa düşmürlər, təcrübələri yoxdur və öyrənmək istəmirlər: "Bəli, mən bütün "sağlam qüvvələr"lə birləşməyə və Ermənistanda hakimiyyətin tezliklə dəyişdirilməsini dəstəkləməyə hazıram". Bu, o deməkdir ki, Ruben Vardanyan Ermənistanda dövlət çevrilişinə çağırış edir. Vaxtilə Paşinyanın adamı olan Arayik R.Vardanyanı "dövlət naziri" vəzifəsindən azad etsə də, onu Qarabağdan çıxara bilmədi. Buna əsas səbəb isə separatçıların Rusiya ilə münaqişəyə girməyə cəsarət etməməsi olub. Çünki yaxşı anlayırlar ki, Rusiya sülhməramlı kontingenti olmasa, Qarabağda bir dəqiqə də qala bilməzlər.

Əlbəttə, Paşinyan hakimiyyəti özü üçün yaranmış təhlükəni yaxşı anlayır. Bu səbəbdən də, Qərblə əlaqələrini daha da gücləndirmək istəyir. Avropa İttifaqının monitorinq missiyasının patrul sayını artırması, KTMT-nin üzvü olduğu halda Ermənistanda ABŞ-la birgə təlim keçirilməsi, Fransanın bu ölkədə fəallaşması da buna dəlalət edir. Lakin Ermənistan müxalifəti də yerində dayanmır və hakimiyyətə qarşı mübarizəni daha da gücləndirməyə çalışır. Burada siyasi mübarizənin hərbi çevrilişlə nəticələnməsi əsas hədəflərdən biridir. Qarabağdakı "tələbələrin" Ermənistana çağırılması da bu planın tərkib hissəsi ola bilər.

# ABŞ-Ermənistan hərbi təlimləri: Rusiya üçün ikinci cəbhə açıla bilərmi?

Xəbər verildiyi kimi, sentyabrın 11-də Ermənistan ABŞ sülhməramlıları ilə birgə "Eagle Partner 2023" birgə təlimlərinə başlayıb. Təlimlərin açılış mərasimi İrəvan yaxınlığındakı Zar təlim mərkəzində baş tutub. Təlimlərdə 85 amerikalı və 175 erməni hərbçi iştirak edir. Təlimlər sentyabrın 20-dək davam edəcək.

## Görünən və görünməyən tərəflər

ABŞ ordusunun Avropa və Afrikadakı komandanlığından bildirilib ki, təlimlər hər iki ölkəyə taktiki səviyyədə əlaqələr qurmağa və sülhməramlı əməliyyatlar üçün bölmələrin qarşılıqlı işləmə qabiliyyətini artırmağa imkan verəcək. Ermənistanın müdafiə nazirliyi də oxşar məzmunlu açıqlama ilə çıxış edib. Bunlar bəhs olunan hərbi təlimlərin, necə deyərlər, görünən tərəfləridir. Hər iki tərəf regiondakı indiki həssas məqamda birgə hərbi təlimlərin keçirilməsinə "sülhyaratma missiyası" ilə bəraət qazandırmağa çalışır.

Məsələnin görünməyən tərəfi isə bütün region üçün narahatlıq doğuran perspektivlərlə bağlıdır. Burada üç məqama diqqət yetirmək lazım gəlir. Məğlub Ermənistanda baş qaldıran revanşizmin birgə hərbi təlimlərin baş tutmasına səbəb olan əsas amillərdən biri kimi qeyd edə bilərik. Sülh prosesinin müəyyən qədər irəlilədiyi bir ərəfədə Ermənistanda revanşizm mövqeyindən çıxış edən qüvvələr fəallıqlarını artırıblar. Paralel şəkildə bu ölkədə hakimiyyətin də mövqeyinin sürüşkən olduğu sezilir. Ermənistan lideri üçtərəfli Bəyanata, Moskvada, Soçidə, Brüsseldə və Praqada keçirilən görüşlərdə əldə olunan razılaşmalara sadiqliyini bildirsə də, İrəvana geri qayıtdıqdan sonra, necə deyərlər, valın üzünü dəyişərək başqa mahnılar səsləndirir, manipulyasiyalara əl atır və beləliklə də, sülh prosesini əngəlləyir.

İkinci məqam xəyanətkar xislətli Ermənistanın Rusiyadan qopmaq, Qərbə yaxınlaşmaq istəyini özündə ehtiva edir. İndiyədək Ermənistan Rusiyadan hərtərəfli şəkildə asılı olub. Bu ölkə mövcudluğuna görə məhz Rusiyaya borcludur. Bəs Ermənistanın minnətdarlığı nədən ibarətdir? - Xəyanətdən. Deyə bilərik ki, bu ölkədə sürüşkənlik, siyasi orientasiyanın dəyişməsi dövlət siyasəti səviyyəsinə yüksəldilib. Hazırda məlum səbəblərdən Rusiyada vəziyyət gərginləşib. Ermənistan isə öz ənənəvi xislətinə uyğun olaraq tabeçilik ünvanını dəyişməyə, hazırda ona istədiyi qədər yardım, dəstək göstərməyən Rusiyadan qopmağa cəhdlər edir. Eyni zamanda, hazırda N.Paşinyan Rusiyanı öz hakimiyyəti üçün ən böyük təhlükə sayır.

Üçüncü mühüm məqam Ermənistanın istəyi ilə Qərbin Cənubi Qafqaz siyasətinin üst-üstə düşməsi ilə bağlıdır. Cənubi Qafqazda Rusiyanı əvəzləmək və burada möhkəmlənmək Qərbin çoxdankı planlarına daxildir. Qərb dairələri Rusiyanın geostrateji mövqeyinin çətinləşdiyi, həmçinin N.Paşinyan iqtidarının sürüşkənliyi fonunda əzəli planlarının reallaşdırılması üçün ən uyğun zaman yetişdiyini düşünür.



## Rusiyanın narahatlığı

Bütün bunlar Ermənistanda Rusiya üçün ikinci cəbhə açılması ehtimallarını gücləndirir. Rusiya ilə Ukrayna arasında münaqişənin alovlanmasının ssenarisini xatırlayaq: Ukrayna Rusiyanın təsir dairəsindən çıxmağı və Qərb strukturlarına inteqrasiyanı özünün strateji kursu kimi elan edir. Avropa İttifaqı (Aİ), Şimali Atlantika Alyansı (NATO) buna qarşılıq niyyətini ortaya qoyur. Bu, Rusiyada NATO-nun genişlənməsinin, konkret desək, onun sərhədlərinə yaxınlaşmasının növbəti mərhələsi kimi dəyərləndirildi. Müəyyən müddət davam edən danışıqlar dalana dirəndi və silahlar işə düşdü. Dağıdıcı münaqişə aylardır ki, davam edir və onun nə vaxt bitəcəyi bəlli deyil. İndi isə oxşar hadisələr Ermənistanda izlənilir.

Təbii ki, Rusiya baş verənlərə seyirçi qalmır. Birgə təlimlərə Rusiyadan kəskin etiraz özünü çox gözlətməyib. Ermənistanın ABŞ-la birgə keçirdiyi təlimlər Rəsmi Moskvanın sərt reaksiyasına səbəb olub. Rusiya tərəfi bu təlimi dərindən araşdıracaqlarını və vəziyyəti izləyəcəklərini açıqlayıb. Kremlin sözçüsü Dmitri Peskov ABŞ-Ermənistan hərbi təlimi ilə bağlı açıqlamasında "Ermənistanın hansı məqsədlər güddüyünü anlamaq lazımdır və bunu araşdıracağıq. Moskva İrəvanın yaxın tərəfdaşı olub və bundan sonra da olacaq. Problemlər ola bilər, ancaq bu məsələnin dialoq çərçivəsində həll edilməsi lazımdır",- deyə bildirib.

*Mübariz ABDULLAYEV*

# Gültəkinin Paşinyan sevdası

Müxalifət düşərgəsində Ermənistanın baş nazirini hakimiyyətə gətirən Qərb dairələrinin sifarişləri əsasında "Hamımız Paşinyanıq" təbliğatı yenidən baş qaldırıb. Bu üzdəniraq kampaniya çərçivəsində xüsusi canfəşanlığı ilə fərqlənən simalardan biri də qondarma Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylidir. Söhbət zaman-zaman siyasi oriyentasiyasını dəyişən, maraqlarını, ona gələn təklifləri dəyərləndirməklə gah bu, gah da digər düşərgədə yer alan Gültəkin Hacıbəylidən gedir. Belə görünür ki, indi onun üçün yeni bir missiya yerinə yetirmək - Ermənistanın lideri Nikol Paşinyanın müdafiəsinə qalxmaq dövrü çatıb. Sifarişin Qərbdəki anti-Azərbaycan dairələrdən gəldiyini təxmin etmək elə də çətin deyil.

**Niyə məhz indi?**



Bəlli mərkəzlərdən idarə olunan sosial şəbəkələrdə "Biz hamımız Paşinyanıq" təbliğat kampaniyasının yenidən gündəmə gəlməsi heç də təsadüfi deyil. Nikol Paşinyan Qərb dairələrinin layihəsi əsasında Ermənistanda hakimiyyətə gətirilib. Əslində, zamanında onun heç bir siyasi perspektivi görünmürdü. Çünki o, diletant birisidir, diplomatik səriştəsi yoxdur, siyasi iradə sahibi deyil. Təsadüfi deyildir ki, verdiyi sözü tez-tez geri götürməsi onun haqqında qeyri-ciddi, komik, həmişə yedəkdə gedən siyasətçi obrazını formalaşdırıb.

Bəs belə birisi barədə niyə məhz indi "Biz hamımız Paşinyanıq" kampaniyasına start verilməsini şərtləndirən amillər hansılardır? Ermənistanda izlənən siyasi proseslərdən o qənaət hasil olur ki, hazırda Nikol Paşinyan hakimiyyətinin ən kritik dönəmini yaşayır. Onun Ermənistanın ənənəvi bağlı və asılı olduğu Rusiya əleyhinə səsləndirdiyi fikirlər qonşu dövlətdə birmənalı qarşılanmayıb. Rusiyanın rəsmiləri son günlərdə Nikol Paşinyanın imicinə böyük zərbə sayıla biləcək fikirlər səsləndirirlər. Ermənistanda revanş götürüb hakimiyyətə keçmək istəyən qüvvələr - onların sırasında sabiq prezidentlər R.Koçaryan və S.Sarkisyan da yer alırlar - Rusiyadan gələn mesajları fürsət kimi dəyərləndirərək N.Paşinyana qarşı total hərəkətə keçiblər. Qərb dairələrinin narahatlığı da bununla bağlıdır. N.Paşinyan onların çirkin Cənubi Qafqaz siyasətini reallaşdırmaları üçün ən uyğun gələn və sözəbaxan loyal fiqurdur.

**G.Hacıbəyli Paşinyanı mədh edən xorda niyə yer alır?**

Gültəkin Hacıbəylinin Paşinyan sevdası tüğyan edir. Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü sosial şəbəkə statusunda yazıb ki, Paşinyan, Şuşada yallı gedib damarımıza basan adamdır, amma o həm də "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü qeyd-şərtsiz tanıyır, Qarabağ məsələsi ərazi deyil, insan hüquqları məsələsidir" deyən şəxsdir. "Azərbaycanın 7 rayonunu vaxtında qaytarmalı idik, səhv etmişik" etirafında bulunan siyasətçidir. G. Hacıbəyli dil ağıza qoymadan davam edir: "Paşinyan 44 günlük savaşda Türkiyənin Azərbaycana misilsiz mənəvi-siyasi dəstəyindən sonra Ankaraya səfər edib cumhurbaşqanı Ərdoğanın inauqurasiyasında iştirak edən, buna görə linç edilən erməni lideridir. Paşinyan ermənidir, təbii ki, ilk öncə öz millətinin maraqlarından çıxış edir. Ancaq bizim bəxtimiz gətirib ki, hazırda Ermənistana erməni millətinin çıxarlarını düzgün hesablayan, Ermənistanı Rusiyanın əsarətindən qoparıb Qərbə, Avrointeqrasiya istiqamətində aparmaq, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaq istəyən siyasətçi rəhbərlik edir. Paşinyan hətta daha irəli gedərək Ermənistan Konstitusiyasında Türkiyəyə və Azərbaycana qarşı ərazi iddialarının mövcudluğuna publik etiraz etmək cəsarətini özündə tapıb".

Gültəkin Hacıbəylinin bədnam statusunda yer alan belə absurd fikirlər çoxdur. Gültəkin Hacıbəyliyə xatırlatmaq istərdik ki, Nikol Paşinyanın onu vəcdə gətirən etirafları məğlub ölkənin liderinin özünə bəraət qazandırmaq, ermənilər qarşısında günahlarını yumaq və nifrət dalğasını bəhanələrlə söngitmək cəhdindən başqa bir şey deyil. Görəsən, Gültəkin Hacıbəyli və xorda yer alan digərləri nə üçün anlamaq istəmirlər ki, Ermənistan liderinin bəhs olunan etirafları dilə gətirməkdən başqa çıxış yolu yoxdur. O, 44 günlük müharibədəki sarsıdıcı məğlubiyyətin, ordunun döyüş qabiliyyətinin aşağı olmasının izahını verməlidir. Obyektiv izahat olmayan yerdə N.Paşinyan kimi siyasətçilər demaqoqiyaya üstünlük verirlər. Nikol Paşinyana hayıl-mayıl olan Gültəkin Hacıbəyli onun müharibədən əvvəl keçmiş Dağlıq Qarabağ münaqişəsi, Azərbaycana qarşı ərazi iddiaları ilə bağlı radikal çıxışlarını nə tez unudub?

Burada belə bir sual da tam yerində səslənir: Bəs Azərbaycandakı müxalifət düşərgəsinin təmsilçiləri, o cümlədən də Gültəkin Hacıbəyliyə nə düşüb ki, onlar da Nikol Paşinyanı mədh edən xorda yer alırlar? Bu sualın cavabı da sadədir. Əli Kərimli başda olmaqla bu anti-milli düşərgə təmsilçilərinin əksəriyyəti Qərbdəki bəlli dairələrə sıx bağlıdırlar - onlardan qrantlar müqabilində ölkəmizin, xalqımızın milli maraqlarına zidd olan tezislər alırlar. Bu düşərgənin antimilli səciyyə daşıyan fəaliyyət istiqamətləri məhz bu tezislər əsasında müəyyənləşir. Belə görünür ki, G.Hacıbəyli və digərləri indi N.Paşinyanın mədhi ilə bağlı tezislər alıblar...

*MÜBARİZ*

# Vaxtı ötmüş "qərar"...

## 5 günlük məktəblər niyə 6 günlüyə keçir?

*Y.BAYRAMOVA*

Yeni tədris ilinin başlamasına artıq iki gün qalıb. Təəssüf ki, dərslər başlamamış bəzi şagirdlərə gələn bildiriş mesajları heç də ürəkaçan deyil. Belə ki, bir çox məktəblərin 6 günlük tədris sisteminə keçməsi ilə bağlı şagirdlərə və valideynlərə məlumat verilib. Bildirilib ki, Pedaqoji Şuranın keçirdiyi iclasda qəbul edilən qərarla bəzi məktəblərdə dərslər 6 günlük olacaq. Məktəb rəhbərliyi isə belə bir addımı dərs yükünün azaldılması ilə əlaqələndirir. Ancaq burada mühüm bir məqam yaddan çıxır: Pedaqoji Şura dərs yükü və yaxud şagird sayı çox olan məktəblərin 6 günlük olmasına özbaşına qərar verə bilməz. Çünki bu iclasda mütəq valideynlər də iştirak etməli və ortaq qərar olmalıdır.

Xatırladaq ki, 2023-2024-cü tədris ili üzrə şagird yerdəyişməsinə avqustun 7-dən start verilmişdi və proses avqustun 31-də başa çatdı. Bütün bunlar isə onu deməyə əsas verir ki, yerdəyişmə avqustun 31-nə qədər olduğu halda Pedaqoji Şuranın özbaşına qərar qəbul etməsi artıq valideynlərin qarşısına bir əngəl çıxarır. Çünki məktəblərdə tədrisin 6 günlük olacağı ilə bağlı valideyn və şagirdlərin cəmi bir neçə gün qabaq məlumatlandırılması nə məntiqə uyğun, nə də düzgün addımdır. Məsələn, şagirdlərin yerdəyişməsi bitmədən öncə belə bir "qərar"la bağlı informasiyalar verilsəydi, övladını məktəbə 6 gün göndərmək istəməyən valideyn də rahat şəkildə seçim edə bilərdi. Yəni, övladlarını tədris 5 gün aparılan məktəbə göndərərdilər.

Mövcud durum təbii olaraq valideynlər və şagirdlər arasında narazılığa səbəb olub. Zaman-zaman tədris prosesi ilə bağlı bir çox xoşagəlməz məqamlarla üzləşmişik. Ancaq təhsil sistemindəki neqativ hallar bitmək bilmir.

**Qərar valideynlərlə bərabər verilməlidir!**

Baş verənlərlə bağlı Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehova əlaqə saxladıq. C.Valehov "Yeni Azərbaycan"a açıqlamasında valideynlərin iradlarında haqlı olduğunu vurğuladı: "Bəzi məktəblərin 6 günlük tədris prosesinə keçməsi ola bilər. Bunun üçün həmin məktəbdəki Pedaqoji Şura qərar verir. Təklif edirəm ki, valideynlər məktəbə gedib bu "qərar"la bağlı öz etirazlarını bildirsinlər. Çünki Pedaqoji Şura belə bir qərarı özbaşına deyil, valideynlərlə bərabər verməlidir. Ona görə də valideynlərin bir araya gəlib baş verənlərin düzgün hal olmadığını demək haqları var. Bu məsələdə birmənalı olaraq valideynlərin yanındayam".



**Məqsədəuyğun deyil...**

Təhsil üzrə ekspert Elçin Əfəndi ölkə üzrə bütün ərazilərdəki məktəblərin 6 günlük dərs qrafikinə keçidinin mümkün olmadığını deyib. Onun sözlərinə görə, bu qrafikə şagird sayı çox olan ərazilərdə keçmək olar: "Şagird sıxlığı az olan ərazilərdəki məktəblərin 6 günlük dərs rejiminə keçməsinin hər hansı bir mənası yoxdur. Hətta dünyanın əksər ölkələrində dörd günlük dərs rejimi tətbiq olunmaqdadır. Belə olan halda ölkəmizdə dərslərin 6 günlük olması məqsədəuyğun deyil. Bu durum müəyyən narazılıqlara səbəb olur. Bəzi ərazilərdə, məsələn, Xırdalan şəhərində sıxlıq çoxdur, orada elə məktəblər var ki, 5-6 min şagird təhsil alır. Yalnız həmin ərazilərdə növbəlilik prinsipləri ilə məktəblər 6 günlük ola bilər. Bakı şəhərinin mərkəzində isə elə məktəblər var ki, orada sıxlıq çox azdır, bu baxımdan belə məktəblərdə dərslərin 6 günlük olmasının mənası yoxdur".

**P.S. Elm və təhsil naziri Emin Əmrullayev ötən ilin yayında gələn tədris ilindən bütün məktəblərin 6 günlük tədris sisteminə keçməsi ilə bağlı yayılan xəbərə münasibət bildirərkən demişdi ki, yayılan bu məlumat şayiədir və belə məlumatlara inanmaq lazım deyil.**

Mövzunu davam etdirəcəyik...

# Krım türklərinə böyük etimad

Haqqında çox danışılan, Ukraynanın yeni Müdafiə naziri Rüstəm Ömərov kimdir? Krım Türkləri İcmasının liderlərindən olan Rüstəm Ömərov Ukrayna hökumətində belə yüksək vəzifəyə təyin olunan ilk Krım türkü sayılır.

"Müdafiə Nazirliyində islahatlara ehtiyac var". Bu sözləri Ukrayna Prezidenti Volodimir Zelenski keçmiş Müdafiə naziri Reznikovu vəzifədən uzaqlaşdırarkən söyləmişdi. Müdafiə Nazirliyinin adının tez-tez korrupsiya qalmaqallarında hallanması, Qərbin bu barədə Ukrayna hökumətinə iradlar bildirməsi, məlum olduğu kimi, nazirin işdən kənarlaşdırılması ilə nəticələndi. Müdafiə naziri postuna yeni təyinat isə həm Rusiya, həm Ukrayna ictimaiyyəti üçün, həm də regionda marağı olan dövlətlərdən ötrü olduqca maraqlı və gözlənilməz addım oldu.

Məsələni şərh edən "Politico" saytı yazır ki, Zelenskinin bu təyinatı Ukraynanın müttəfiqlərinə və rəqiblərinə iki açıq mesaj ötürür. Birincisi budur ki, Kiyev korrupsiyaya qarşı ciddi mübarizə aparır. İkincisi isə Ukraynanın Krımı Rusiyadan geri almaqda israrlı olduğunu bildirməkdir.

Əvvəldə də qeyd etdiyimiz kimi Ukraynanın yeni Müdafiə naziri Qərb dairələrində də müzakirə edilir.

ABŞ-ın Rusiyadakı keçmiş səfiri, Stenford Universitetinin professoru Maykl Makfol X sosial şəbəkəsində (keçmiş "Twitter") yazıb: "Rüstəm Ömərovun Müdafiə naziri olması Krımın heç vaxt unudulmayacağı deməkdir. Bu isə əla xəbərdir!"

## Krımın parlayan ulduzu

Rüstəm Ömərovun ailəsi Stalin dövründə Sovet Özbəkistanına sürgün edilib. Rüstəm Özbəkistanda anadan olub. 1980-1990-cı illərdə sürgün edilmiş tatarların doğma yerlərinə geri qayıtmasına icazə verildikdən sonra Ömərovun ailəsi yenidən Krıma köçür. Ömərov biznes karyerasına 2004-cü ildə telekommunikasiya sahəsində çalışmaqla başlayıb. 2013-cü ildə özünün ASTEM investisiya şirkətini və şirkətə daxil olan ASTEM Fondunu yaradıb. Sonralar siyasi karyerada yüksəlməyə başlayan Ömərov 2019-cu ildə parlamentə seçilib. O, 2014-cü ildə Rusiya tərəfindən zəbt edilmiş yarımadanı azad etmək üçün yaradılan beynəlxalq diplomatik təşəbbüs qrupu - Krım Platformasının həmsədri kimi fəaliyyət göstərib. Ömərov həmçinin uzun illər Krım tatarlarının lideri Mustafa Cəmiloğlunun müşaviri işləyib. Rusiya 2014-cü ildə Krımı qeyri-qanuni olaraq ilhaq etdikdən sonra Ukraynada bu ilhaqla bağlı referendum keçirilib və Rusiyanın bu addımı işğal kimi qiymətləndirilib. Bundan sonra Moskva müsəlman tatarların ənənəvi toplantı mərkəzi olan "Məclis"in fəaliyyətini qadağan edərək onu ekstremist təşkilat elan edib. O vaxtdan bəri Rusiya, təhlükəsizlik səbəblərini əsas gətirərək fəaliyyət göstərmək istəyən "Məclis" üzvlərini həbsxanaya göndərirdi.

Sözsüz ki, belə bir məqamda Krım türkünün Ukraynada Müdafiə naziri postuna gətirilməsi xüsusilə, Rusiya üçün ciddi mesajdır. "Rusiya işğalçıları ölkəmizin ərazisində apardıqları hərbi əməliyyatlara bəraət qazandırmaq üçün Ukrayna xalqını etnik qruplara bölmək ideyası ilə çıxış edirlər". Bu sözləri Rüstəm Ömərov ötən il İordaniyanın "AmmanNet" xəbər saytına müsahibəsində deyib. "Lakin biz Ukraynada etnik, dini mənsubiyyətimizə görə heç bir şovinizm və ya islamofobiya meyli hiss etmirik" - deyə, Ömərov həmin müsahibəsində əlavə edib.

Həm Krımın ilhaqından sonra, həm də Rusiyanın tammiqyaslı işğalı başlayandan bəri Ömərov Rusiya rəsmiləri ilə məxfi danışıqlarda, o cümlədən yüksək statuslu əsirlərin mübadiləsi, eləcə də 2022-ci ildə Mariupol uğrunda döyüşlər zamanı əsir götürülən Ukrayna Azov döyüşçüləri və mülki şəxslərin evakuasiyası ilə bağlı ciddi danışıqlarda olub.

O, müharibənin ilk həftələrindən etibarən Rusiya ilə aparılan danışıqlarda Ukrayna nümayəndə heyətinin tərkibində olub və Qara dəniz vasitəsilə Ukrayna taxılının ixrac dəhlizinin yaradılması üzrə müzakirələrdə fəal iştirak edib.

Krım Türkləri Məclisinin sədri Refat Çubarov Rüstəm Ömərovun Müdafiə naziri postuna təyin olunmasını icma üçün uğurlu və məsuliyyətli addım kimi dəyərləndirib:

"Rüstəm Ömərov Avropa İttifaqında, Türkiyədə, Mərkəzi Asiya ölkələrində və ərəb dünyasında beynəlxalq əlaqələr qurmuş, strateji baxışa malik güclü siyasi menecerdir.

Belə yüksək bir təyinat Krım türklərinin Ukraynanın hökumət strukturlarına inteqrasiyası üçün çox yaxşı siqnal, eyni zamanda da böyük məsuliyyətdir".

## Türkiyə ilə qardaşlıq

Bu arada Ömərovun İslam dünyasındakı, xüsusən də Türkiyədəki əlaqələri də Ukrayna üçün olduqca əhəmiyyətlidir. Belə ki, Ömərov siyasətə gəlməzdən öncə Türkiyənin "Turkcell" şirkətində investisiya müşaviri vəzifəsində çalışıb. Beləliklə o, Türkiyənin biznes və siyasi elitasında güclü əlaqələr yarada bilib. Təbii ki, Ömərov Türkiyə türkcəsində də səlis danışır. Bəzi məlumatlara görə Ömərovun Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri (Türkiyə kəşfiyyatının keçmiş rəhbəri) Hakan Fidanla da yaxşı münasibətləri var.

Bundan əlavə, Ömərov Zelenskinin Səudiyyə Ərəbistanına may ayında baş tutan səfəri zamanı nümayəndə heyətinin üzvü olub. O, həmçinin mart ayında Birləşmiş Ərəb Əmirliklərinə səfəri zamanı Yelena Zelenskayanı da müşayiət edib. Bu yaxınlarda, ərəb dünyasının yaxşı tanıdığı Ömərov haqqında "Əl-Cəzirə" telekanalı: "Ömərov müsəlman ölkələrindən Ukraynaya silah tədarükünü təmin edən əsas fiqurdur"- sözlərini də səsləndirib.

Ömərov artıq yeni vəzifəsində ilk addımlarından danışıb. Bunlara Müdafiə Nazirliyinin tabeliyində olan bütün sahələrin auditinin aparılması, F-16 qırıcılarının tam istismarı üçün lazımi infrastrukturun hazırlanması və yerli istehsalçının müdafiə qabiliyyətinin artırılması daxildir. "Ukraynada istehsal oluna bilən hər şey, elə Ukraynada da istehsal edilməlidir" - deyə, Ömərov Ali Radanın iclasında bildirib.




## Müharibədə əsaslı dönüş gözlənilirmi?

Bəs, yeni Müdafiə nazirinin təyinatı cəbhədə əsaslı dəyişiklik yarada biləcəkmi? Xarici ekspertlərin fikrincə, Rüstəm Ömərovun Müdafiə naziri postuna gətirilməsinin döyüş meydanında ciddi dəyişikliklərə səbəb olacağı etimalı azdır. Belə ki, general Valeri Zalujnı Ukrayna Silahlı Qüvvələrinin komandanı olaraq qalır, cənub istiqamətində isə Ukrayna Silahlı Qüvvələrinin bölmələrinə briqada generalı Aleksandr Tarnavski rəhbərlik edir.

Ümumiyyətlə, Ukraynanın əks-hücum əməliyyatı müttəfiqlərinin gözlədiyindən daha yavaş gedir. Bu yaxınlarda isə Ukraynanın hərbi rəhbərliyi ölkənin Silahlı Qüvvələrinin Zaporojye bölgəsində Rusiyanın müdafiə xəttini yarıb keçdiyini təsdiqləyib. Bütün hallarda Ukrayna xalqının və Krım türklərinin Rüstəm Ömərovdan gözləntiləri böyükdür. Yəqin ki, Rüstəm Ömərov ona yönələn ümidləri doğrulda biləcək.

*Murad Köhnəqala*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər**

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898

“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**01.01.2024-cü il tarixdən etibarən qəzetin qiyməti 0,60 AZN təşkil edəcək.**
**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Tariximizi təbliğ edək!

## “Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı” sərgisi açılacaq

***Günel ABBAS***

Tarixi abidələrimizin, adət-ənənələrimizin təbliği gənclərdə vətənpərvərlik ruhunun artırılması, tariximizin gələcək nəsillərə ötürülməsi baxımdan olduqca əhəmiyyətlidir. Bu baxımdan Heydər Əliyev Mərkəzində yaxın zamanda açılması nəzərdə tutulan “Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı” sərgisini qeyd etmək yerinə düşər. Sərgidəki eksponatlar vasitəsi ilə görkəmli dövlət xadimi və sərkərdə Uzun Həsənin yaratdığı Ağqoyunlu dövlətinin xırda bəylikdən böyük imperiyaya qədər keçdiyi yolu, Azərbaycan dövlətçiliyi tarixindəki xüsusi yerini izləmək mümkün olacaq. Ziyarətçilər bir çox nadir eksponatlar, o cümlədən İstanbuldakı Harbiye Hərb Muzeyində saxlanılan və indiyə qədər Türkiyə hüdudlarından kənara çıxarılmayan tarixi nümunələrlə tanışlıq imkanı qazanacaqlar. Qeyd edək ki, bu il Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin (1423-1478) anadan olmasının 600-cü ildönümüdür.

Tarixçi, deputat Anar İsgəndərov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, adət-ənənələr min illər ərzində formalaşır. O, əlavə edib ki, ölkəmizin qədim dövlətçilik tarixi var və bunu təbliğ etməliyik: “Bu mənada sözügedən sərginin keçirilməsi tariximizin təbliğatı baxımından əhəmiyyətlidir. Tarix həmişə dövlətçilik ənənəsi ilə diqqəti cəlb edir. Bu baxımdan Azərbaycan dünyanın o dövlətləri sırasındadır ki, tarix boyu ərazisinə, iqliminə, insan məskənlərinə görə ən qədim dövlətlərin siyahısındadır. Bu gün Füzuli rayon mərkəzindən 14 km kənarda yerləşən Azıx mağarası bunu sübut edir. Xalq olaraq düşüncə sahibi kimi dövlətini qurur, ərazisi, əhalisi, iqtisadiyyatı olur. Beləliklə, illər ərzində elmə, təhsilə, mədəniyyətə xüsusi önəm verir, qonşu dövlətlərlə münasibətlər qurur. Bu cəhətdən tarixi İpək yolunun Azərbaycan torpaqlarından keçməsi, bura gəlib gedənlərin çoxluğuna səbəb olub. Dünyanın ən qədim abidələri bizim ölkədədir. Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər kimi dövlətlər qədim idarəçilik tariximizdən xəbər verir.

Gənclərimiz dünyanın hər yerində Azərbaycan həqiqətlərini yayır. Həmçinin, öyrəndikləri təcrübələri Azərbaycanda tətbiq edirlər. Azərbaycan dövlətçiliyi həyatın bütün sahələrində, o cümlədən gənclər üçün hər cür şərait yaradıb. Ona görə də gənclərimiz və hər birimiz dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği ilə bağlı əlimizdən nə gəlirsə etməliyik”.

Tarixçi Elmar Musayev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, tariximizin, milli adət-ənənələrimizin, elm və mədəniyyətimizin təbliği ilə bağlı vacib addımlar atılır: “Bu gün Heydər Əliyev Fondunun dəstəyi ilə muğam sənəti, aşıq sənəti YUNESKO-nun Qeyri-Maddi, Mədəni İrsi siyahısına daxil edilib. Xalqın formalaşmasında əsas rüşeym rolunu oynayan mədəniyyətdir. O mədəniyyətin qorunub saxlanılmasının beynəlxalq miqyasda təbliği çox önəmlidir. Bu gün türklüyün təbliği ilə bağlı müxtəlif birliklər var. İstər qeyri-hökumət təşkilatları, istərsə də dövlət səviyyəsində, istər gənclərin özləri təbliğatla bağlı müəyyən layihələr həyata keçirirlər.

Türklüyün təbliği ilə bağlı kifayət qədər iş görülür. Amma bununla belə sırf türk şüarı ilə türkçülük ideyaları ilə yox, xalqın tarixinin öyrənilməsi çox önəmli məsələdir. Çünki tarixi bilmədən o xalqın keçmişinin nəyə bağlı olduğunu bilməzsən. İnsan öz Vətənini gəzməsə, tarixi abidələri gözləri ilə görməsə, hər hansı bir əcnəbiyə onu çatdıra bilməz. Mənim əsas fikrim ondan ibarətdir ki, bu gün gənclər Azərbaycanın tarixini, mədəniyyətini mükəmməl bilməlidir ki, bunu təbliğ edə bilsin.

Tarixə gənclər arasında biganə münasibət var. Düşünürlər ki, tarix elə xronologiyadan ibarətdir. Tarix elmi sırf hadisələri qeydə almır. Tarix elmi xalqın milli kimliyinin formalaşması prosesinin nəzəri xronologiyasını öyrənir. Müəyyən etaplarla müqayisəni aparır. Təbliğat sistemini düzgün qurmaq, insanlara onu çatdırmaq lazımdır. Təbliğatı da, qəliz anlaşılan terminlərlə yox, sadə insanların anlayacağı şəkildə aparmaq zəruridir”.



## Diaspor Boks Liqasının təmsilçiləri beynəlxalq turnirdə qələbə qazanıblar

Almaniyanın Halle şəhərində keçirilmiş beynəlxalq turnirdə Diaspor Boks Liqasını təmsil edən boksçular uğurla çıxış ediblər.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Diaspor Boks Liqasının və Heydər Əliyev adına Dünya Boks Komitəsinin birgə təşkilatçılığı ilə Volspark zalında baş tutan yarışda 16 çəki dərəcəsində qarşılaşmalar baş tutub.

Liqanın boksçuları Aleksandr Frank və Azər Soltanov peşəkar rinqdə isveçli və belaruslu rəqibləri üzərində inamlı qələbə qazanıblar.

Yarışın qalibi Aleksandr Frank müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş kəmərlə təltif olunub.

Qeyd edək ki, 11 ildir Almaniyanın Maqdeburq şəhərində davamlı fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsinin yarışları artıq sentyabrın 1-dən nüfuzlu “BoxRec” saytındakı dünya reytinq cədvəlinə düşüb. Bu addım Ulu Öndər Heydər Əliyevin adını daşıyan kəmərlərin bütün dünyada tanıdılması məqsədilə atılıb.



## Dünya Qadın Seriyası: “Neftçi”nin final mərhələsindəki rəqibləri müəyyənləşib

16-17 sentyabr aralığında Monqolustanın paytaxtı Ulan-Batorda 8 komandanın iştirakı ilə 3x3 basketbol üzrə Dünya Qadın Seriyasının final mərhələsi baş tutacaq.



Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, təmsilçimiz “Neftçi” B qrupunda Çin, ABŞ millisi və “Yuanda” (Çin) klubu ilə üz-üzə gələcək.

Bakı klubu qrupda ilk oyununu sentyabrın 16-sı, Bakı vaxtı ilə saat 12:15 -də ABŞ yığmasına qarşı keçirəcək. İkinci görüş saat 14:05-də Çin millisi, sonuncu qarşılaşma isə saat 15:05-də “Yuanda” klubu ilə olacaq.

Qeyd edək ki, qruplarda ilk pilləni tutan komandalar yarımfinala, ikinci və üçüncü sıranın sahibləri isə “play-in” mərhələsinə vəsiqə qazanacaqlar.

## “AVRO 2024”: Portuqaliya 9 qolla qalib gəlib, Xorvatiya Ermənistanı səfərdə məğlub edib

“AVRO 2024”-ün seçmə mərhələsində 6-cı turun növbəti oyunları keçirilib.




AZƏRTAC xəbər verir ki, tur çərçivəsində daha beş görüş baş tutub.

D qrupunda Xorvatiya yığması səfərdə Ermənistanı minimal hesabla məğlub edib.

J qrupunda isə itkisiz irəliləyən Portuqaliya yığması Lüksemburqu sınağa çəkib. Meydan sahibləri bu görüşdə 9 cavabsız qola seviniblər.

## Azərbaycanın güləş millilərinin dünya çempionatı üçün heyətləri açıqlanıb

Azərbaycanın güləş millilərinin Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatı üçün heyətləri açıqlanıb.

“Report”un məlumatına görə, baş məşqçilər ümumilikdə 26 idmançıya dəvət göndəriblər.

Onlardan 10-u sərbəst, 10-u yunan-Roma, 6-sı isə qadın güləşçidir.

Sərbəst güləşçilər: Əliabbas Rzazadə (57 kq), İntiqam Vəlizadə (61 kq), Hacı Əliyev (65 kq), Maqomed-Başir Xanıyev (70 kq), Turan Bayramov (74 kq), Orxan Abasov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurmaqomedov (92 kq), Maqomedxan Maqomedov (97 kq), Georgi Meşvildişvili (125 kq).

Yunan-Roma güləşçiləri: Eldəniz Əzizli (55 kq), Nihat Məmmədli (60 kq), Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Arif Niftullayev (97 kq), Beka Kandelaki (130 kq).



Qadın güləşçilər: Mariya Stadnik (50 kq), Elnurə Məmmədova (53 kq), Jalə Əliyeva (57 kq), Alyona Kolesnik (59 kq), Elis Manolova (62 kq), Birgül Soltanova (65 kq).

Qeyd edək ki, sentyabrın 16-da startı veriləcək dünya çempionatı ayın 24-də başa çatacaq.

## Xetaq Qazyumov: “Dünya çempionatında olimpiadaya minimum 6 lisenziya hədəfləyirik”

“Ambisiyalı məşqçiyəm, dünya çempionatında olimpiadaya minimum 6 lisenziya hədəfləyirik”.

“Report”un məlumatına görə, bunu sərbəst güləş üzrə Azərbaycan millisinin baş məşqçisi Xetaq Qazyumov Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatında hədəfləri barədə danışarkən deyib.



40 yaşlı mütəxəssis mundiala döyüşkən heyətlə yollanacaqlarını bildirib: “Qeyri-olimpiya çəkilərində əsasən gənclərə üstünlük vermişik. Olimpiya çəkilərində isə təcrübəlilər yer alıblar. İdmançılarımız dünya çempionatında öz sözlərini demək istəyirlər. Maksimum güclərini ortaya qoymaları üçün çalışırıq. Məsələn, Avropa çempionumuz Əliabbas Rzazadədən (57 kq) minimum olimpiadaya lisenziya qazanmağı gözləyirəm. Maksimumu arzulayan insan kimi onun dünya çempionu olmasını istəyirəm”.

O, üçqat dünya çempionu Hacı Əliyevdən (65 kq) uğurunu təkrarlamasını gözləyir: “Dünya və Avropa çempionumuz Hacı Əliyevə də ümidimiz böyükdür. Hazırda çox yaxşı formadadır. İnanıram ki, hansısa zədə və ya problem onun yenidən dünya çempionu olmasına mane olmayacaq”.

Baş məşqçi 74 kq çəki dərəcəsində çıxış edən 22 yaşlı Turan Bayramovla bağlı da xoş fikirlər səsləndirib: “Turan Bayramov istedadlı gənclərimizdəndir. O, bu il gənclər arasında Avropa çempionatının qalibi olub, beynəlxalq turnirdə uğurla çıxış edib. Təlim-məşq toplanışını da yüksək səviyyədə keçirdi. Hər şey öz əlindədir. Fikrimcə, qızıl medal qazanmağa, ən pis halda olimpiadaya lisenziya əldə etməyə hazırdır”.

Xetaq Qazyumov digər güləşçilərdən Abubakr Abakarov (86 kq), Maqomedxan Maqomedov (97 kq) və Georgi Meşvildişvilidən (125 kq) də dünya çempionluğu gözləyir: “İstər olimpiya, istərsə də qeyri-olimpiya çəkilərində maksimum nəticəni hədəfləyirik. Bunun üçün güləşçilərimiz xarakter nümayiş etdirməli və görüşlərə yüksək motivasiya olunmalıdırlar. Əlbəttə ki, rəqiblər güclüdürlər. Ancaq bizim üçün ən vacibi özümüzük. Hansısa komandanın bizə maneə törədəcəyi barədə düşünmürük”.

Qeyd edək ki, sentyabrın 16-24-ü aralığında keçiriləcək dünya çempionatına Azərbaycan 10 sərbəst güləşçi ilə yollanacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 7282**
**Sifariş: 2357**
“Kapital Bank”ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova